YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
18 iyul
2024-cü il,
cümə axşamı
№ 126 (6712)
Qiyməti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!



# Azərbaycan hərbi gücünü artırır

## Qabaqcıl beynəlxalq təcrübə öyrənilir, əlaqələr genişləndirilir

Bax səh. 2

## Kolonializmə qarşı birgə mübarizə

Bax səh. 4

## "Yaşıl enerji" istehsalı 2 dəfə artıb

Azərbaycanda "yaşıl enerji" istehsalı 2024-cü ilin birinci yarısında ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə artaraq rekord səviyyəyə yüsəlib. Ötən ilin bu dövründə bərpa olunan enerji istehsalı 1 milyon kVt.st təşkil edibsə, artıq bu rəqəm 2 milyon kVt·stı ötüb. "Yaşıl enerji"nin payında Günəş enerjisi istehsalı daha çox artıb, bu sahədə istehsal 9 dəfə böyüyərək 32,3 mln. kVt·st-dan 286,6 mln. kVt·st-a yüksəlib. Digər enerjinin isə 1581,1 mln. kVt·st SES-lərin, 135 mln. kVt·st Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun payına düşüb. Beləliklə, "yaşıl enerji" mənbələri üzrə elektrik istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1 milyon kVt·st artıb.

Cari ilin birinci yarısında ölkə üzrə elektrik enerjisinin istehsalı 13,5 milyon kVt·st təşkil edib ki, ümumi istehsalda "yaşıl enerji"nin xüsusi çəkisi 15,5 faizə bərabərdir. Bu, son bir ildə bərpa olunan enerjinin payının 8 faizə yaxın artımı deməkdir. Bu statistika artıq ölkəmizdə bərpa olunan mənbələrdən enerji istehsalının artırılması istiqamətində yürüdülən siyasətin öz mühüm bəhrəsini verdiyini təsdiqləyir.

Qeyd edək ki, Azərbaycanın bərpa olunan enerji mənbələri üzrə potensialı 27000 Mvt dəyərləndirilir. Bunun 23000 Mvt-ı Günəş, 3000 Mvt-I isə külək enerjisinin payına düşür. Günəş enerjisi üzrə, demək olar, bütün ölkə ərazisində istehsalın təşkili mümkündür. Külək enerjisi üçün isə Bakı şəhəri, Abşeron və Xızı rayonları...

Bax səh. 4



Bax səh. 3

## YAP İdarə Heyətinin iclası keçirilib

## 6,1 milyard manatdan çox büdcə profisiti...

Bax səh. 4

## Qarabağ və Şərqi Zəngəzurda sahibkarların sayı artır

Bax səh. 3

## Aİ-nin Ceyms Vens "qorxusu"...

Noyabr ayında ABŞ-da keçiriləcək prezident seçkilərində iştirak edəcək namizədlərdən biri dəqiqləşdi. Belə ki, iyulun 15-də Viskonsin ştatının Milouki şəhərində Respublikaçılar Partiyasının 43-cü Qurultayı işə başlayıb. Xatırladaq ki, Respublikaçılar Partiyası prezident və vitse-prezidentliyə namizədləri rəsmən irəli sürmək və təsdiqləmək üçün prezident seçkilərinə bir neçə ay qalmış dörd ildən bir öz Qurultayını keçirir. Bundan başqa, qurultayda partiyanın namizədinin proqramı da qəbul edilir. Nəzərə alsaq ki, ştatlar üzrə keçirilən praymerizdə Donald Tramp 2429 nümayəndədən 2268-nin dəstəyini qazandığı üçün onun namizədliyinin elan edilməsi gözlənilən idi. Beləliklə, Qurultayın ilk günündəcə Donald Tramp rəsmi olaraq prezidentliyə namizəd elan edilib. Namizədin belə asan müəyyənləşməsinin əsas səbəbi isə Trampın əvvəldən nümayəndələrin böyük əksəriyyətinin dəstəyini qazanması olub. Qurultayın əsas səs-küylü hadisələrindən biri isə Donald Trampın komandasının əsas simasını - vitse-prezidenti elan etməsi olub. Tramp Ohayodan olan 39 yaşlı senator, "qatı Trampçı" kimi tanınan Ceyms Devid Vensi özünün vitse-prezidenti kimi təqdim edib. Vens gənc olsa da, bioqrafiyası olduqca zəngindir. 1984-cü ilin avqustunda Midltaunda anadan olan Vens 2003-cü ildə məktəbi bitirərək Dəniz Piyadaları Korpusunda xidmət etməyə başlayır. İraq müharibəsi dövründə Korpusun ictimaiyyətlə əlaqələr işinə məsul olub....

Bax səh. 6



Bax səh. 5

## Dünya post-Bayden dövrünə "hazırlaşır"...

## Nüvə danışıqları bərpa olunacaqmı?

İran İslam Respublikasının Qərbin ağır sanksiyalarına məruz qalması yeni məsələ deyil. Əsasən, ABŞ tərəfindən reallaşdırılan bu sanksiyalar müxtəlif səbəblərlə əlaqələndirilib. Vaşinqton İranın nüvə proqramını qlobal təhlükəsizliyə təhdid kimi dəyərləndirir. Rəsmi Tehran isə proqramın reallaşdırılmasının onun üçün hədəf olduğunu bildirir. Nüvə proqramına görə tətbiq olunan sanksiyalar əsas etibarı ilə qonşu dövlətin neft ixracının məhdudlaşdırılmasını əhatə edir.

Xatırladaq ki, İran və altılıq (ABŞ, Fransa, Böyük Britaniya, Çin, Rusiya Federasiyası və Almaniya) hələ 2015-ci ilin 14 iyulunda Birgə Hərtərəfli Fəaliyyət Planı imzalayıblar. Və bununla da Tehran müstəsna olaraq dinc nüvə proqramını həyata keçirmək, 15 il ərzində 300 kq-dan artıq olmayan az zənginləşdirilmiş urana sahib olmaq imkanını, yüksək zənginləşdirilmiş uran və silah dərəcəli plutonium istehsal etməmək, nüvə sentrifuqalarının sayını 19 mindən 6,1 minə endirmək, Fordodakı zənginləşdirmə zavodunu texnologiya mərkəzinə çevirmək, MAQATE müfəttişlərinə öz nüvə obyektlərinə baş çəkməyə və Arakdakı reaktordan yalnız dinc məqsədlər üçün istifadə etməyə icazə vermək öhdəliklərini öz üzərinə götürdü.

Altılıq isə qarşılığında tətbiq edilən sanksiyaları aradan qaldırmağa razılıq...

Bax səh. 5



Bax səh. 6

## Azərbaycanda demokratik seçki mühiti mövcuddur



Bax səh. 5

## NATO Gürcüstanla əlaqələri bitirmək istəmir

# Azərbaycan hərbi gücünü artırır

## Qabaqcıl beynəlxalq təcrübə öyrənilir, əlaqələr genişləndirilir



Ölkələrin müdafiə potensiallarını gücləndirmələri məsələsi aktuallığını daima qoruyur. Bu da ilk növbdə onunla bağlıdır ki, hazırda dünyada bir sıra hallarda beynəlxalq hüquqa məhəl qoyulmur, dövlətlərarası münasibətlərin tənzimlənməsində ikili standartlardan çıxış edilir. Bu halda ölkələr milli maraqlarını qorumaq naminə öz güclərinə, daxili imkanlarına istinad etmək məcburiyyətində qalırlar ki, burada da güclü ordu əsas amil qismində çıxış edir. Azərbaycan nümunəsində bir daha təsdiqləndi ki, suverenliyin, ərazi bütövlüyünün qarantı məhz güclü ordudur.

### Müharibə başa çatsa da...

Son 20 ildə ordu quruculuğu Azərbaycanın gündəliyində dayanan mühüm məsələlərdən biri olub. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında ordu quruculuğunun davamlı olaraq diqqət mərkəzində saxlanılması öz bəhrəsini verib. Yaradılan güclü Silahlı Qüvvələrimiz döyüşlərdə öz məharətini göstərib. Silahlı Qüvvələrimiz 2020-ci il 27 sentyabr tarixində əks-hücum əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsində düşmən üzərində Qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Döyüşlərdə bir addım da geri çəkilməyən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vuraraq, 44 gün ərzində 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad etdi. Vətən müharibəsinin nəticələrinə uyğun olaraq Azərbaycan ərazi bütövlüyünün təmin edilməsinə hərbi-siyasi yolla nail oldu.

Ordumuz 2023-cü il sentyabrın 19-20-də keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı cəmi 23 saat ərzində yüksək peşəkarlıqla separatçıların ağ bayraq qaldırmalarını təmin etdi. Bununla da ölkənin bütün ərazisində Azərbaycanın suverenliyi bərpa olundu.

Artıq müharibə sona yetib və ölkəmiz əsas hədəflərinə - ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasına nail olub. Bir çoxları düşünürdü ki, müharibə başa çatdıqdan sonra Azərbaycan ordu quruculuğuna diqqəti azaldacaq. Ancaq belə olmadı. Müharibə başa çatsa da, Silahlı Qüvvələrin gücləndirlməsi yenə də Azərbaycanın gündəliuyinin mərkəzində dayanan məsələlər sırasındadır. Prezident İlham Əliyev hər zaman bildirib ki, müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayacaq. Çünki qalib Azərbaycanın postmüharibə mərhələsində də ordu quruculuğunu diqqət mərkəzində saxlamasını şərtləndirən mühüm amillər var.



### Yaradılan komando birlikləri

Postmüharibə dönəmində Azərbaycan Ordusundakı dəyişiklərdən biri strukturun yenilən məsi ilə bağlıdır. O cümlədən peşəkar hərbi heyətlər - komando birlikləri yaradılır. Komando hərbi hissələri yüksək fiziki və döyüş hazırlığına malik peşəkar hərbi qulluqçularla komplektləşdirilir. Komando adını qazanmaq üçün hərbi qulluqçuların komando ixtisas kursunu müvəffəqiyyətlə bitirməsi, müvafiq rəngdə beret və döş nişanını əldə etməsi şərtdir. Komando ixtisas kursu çox çətin kursdur. Bu kursda təlimlər "Görünmədən görmək, ölmədən dönmək" şüarı altında keçirilir. İxtisas kursu dərin qarda və soyuqda döyüş əməliyyatı, quru komando əməliyyatı, suüstü komando əməliyyatı, hava-desant əməliyyatı, yaşayış məntəqələrində antiterror əməliyyatı mərhələləri üzrə keçirilir. Müzəffər Ali Baş Komandan İlham Əliyev ordumuzun strukturunun yenilənməsinin önəmindən bəhs edərək vurğulayıb: "Komando Briqadasının yaradılması bizim üçün yenilikdir. Bir yox, iki yox, bir çox Komando briqadaları artıq Azərbaycanda yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar."

Komando birliklərinin yaradılması Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması prosesi çərçivəsində həyata keçirilir. İki qardaş ölkə Şuşa Bəyannaməsi ilə strateji müttəfiq olduqlarını rəsmi qaydada təsdiqləyiblər. O cümlədən dünyada ən qabaqcıllardan olan Türkiyə Ordusunun yeniliklərinin respublikamızda da tətbiq olunmasına "yaşıl işıq" yandırılır. Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə 2022-ci ildə Milli Müdafiə Universiteti yaradılıb. Milli Müdafiə Universitetinin başlıca vəzifələrindən biri Azərbaycan Ordusunda ali hərbi təhsilin bütün səviyyələri və əlavə təhsil proqramları üzrə ixtisaslı kadrlar hazırlamaqdır.

### Maliyyə təminatının gücləndirilməsi

Postmüharibə dövründə Silahlı Qüvvələrin gücləndirilməsi müxtəlif pozisiyalar ürə həyata keçirlir. O cümlədən ölkənin iqtisadi-maliyyə imkanlarının getdikcə artması fonunda ordunun müasirləşdirilməsi, maddi-texniki təchizatının möhkəmləndirilməsi, kadr hazırlığı, əsgər və zabitlərin peşəkarlığının yüksəldilməsi, hərbiçilərin sosial vəziyyətinin yaxşılaşdırılması əsas hədəflər sırasında yer alır. Ordunun maliyyə təminatının gücləndirilməsi də vacib şərtlərdəndir. Əgər Azərbaycanın hərbi-müdafiə xərcləri 2003-cü ildə 150 milyon manat idisə, hazırda 7 milyard manatdan çoxdur. Yəni son 20 ildə hərbi xərclər 40 dəfə artırılıb. Respublikamızda 2022-ci ildə müdafiə və milli təhlükəsizlik sahəsinə 5622,5 milyon manat məbləğində vəsait yönəldilib. Qeyd olunan rəqəm dövlət büdcəsi xərclərinin 17,5 faizini təşkil edib. Bu vəsait 2021-ci illə müqayisədə 737,0 milyon manat və ya 15,1 faiz çox olub. 2023-cü ilin təsdiqlənən büdcə layihəsində müdafiə və milli təhlükəsizlik istiqaməti üzrə 5 320 093 593,0 manat məbləğində vəsait yönəldilməsi nəzərdə tutulmuşdu. Ötən ilin yayında dürüstləşmə zamanı büdcəyə bütövlükdə, 3 milyard manatdan çox vəsait əlavə edildi. Əlavə vəsaitin də 1,1 milyard manatı məhz bəhs olunuan prioritet üzrə istiqamətləndirildi. 2024-cü il dövlət büdcəsi layihəsinə dəyişikliklərdən sonra müdafiə və milli təhlükəsizlik xərcləri 705 milyon manat artırılaraq 6 milyard 421 milyon manatdan 7 milyard 126,3 milyon manata çatdırılıb.



### Müasir silahların alınması

Azərbaycan Ordusunun müasir silahlarla təmin olunmasının bir mənbəyi daxili istehsaldır. Prezident İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli Sərəncamı ilə Müdafiə Sənayesi Nazirliyinin yaradılmasından sonra respublikamızda bu sahənin inkişafı tamamilə yeni mərhələyə qədəm qoyub. Nazirliyin "İqlim" Elmi İstehsalat, "Telemexanika", "Peyk", "Azon", "Alov", Elektron Hesablayıcı Maşınlar və "Radioquraşdırma" , "Dalğa", "Araz" , "Avia-Aqreqat", "Sənayecihaz" kimi müəssisələrində Silahlı Qüvvələrimizin müasir tələblərə cavab verən müdafiə təyinatlı məhsullarla təmin etmək məqsədilə bir sıra yeni istehsal sahələri yaradılıb. Hazırda daxili istehsala aid "Zəfər", "Zəfər-K", "İnam" tapançaları, PKT, PKM pulemyotları, "Mübariz", "İstiqlal", "Yalquzaq", "Yırtıcı" snayper tüfəngləri, "Boran" artilleriya qurğusu, "Qaya" tank əleyhinə əl qumbaraatanları, "Komando" tipli "Aşırım" minaatanları, "Matador" və "Marauder" zirehli hərbi texnikaları keyfiyyət göstəricilərinə görə öz seqmentləri üzrə bütün dünyada ən yaxşılardan sayılır.

Ordumuzun Hərbi texnika təchizatının digər mənbəyi isə, heç şübhəsiz ki, xaricdən silah tədarüküdür. Məlumdur ki, hazırda silahların alınması ayrı-ayrı ölkələr üçün ciddi problem olaraq qalır. Prezident İlham Əliyev beynəlxaql miqyasda qazandığı nüfuzu və şəxsi dostluq əlaqələri sayəsində Azərbaycanın bu problemdən yan keçməsinə nail olub. Hazırda respublikamızın ayrı-ayrı ölkələrlə və qabaqcıl istehsalçılarla müasir silahların tədarükü üzrə əməkdaşlıq əlaqələri mövcuddur və imzalanan müqaviələr dəqiqliklə icra edilir. Ölkəmiz fərqli hərbi sərgilərdə təmsil olunur, eyni zamanda dövlət başçısı mütəmadi olaraq fərqli ölkələrin müasir hərbi təchizatları ilə tanış olur. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Pakistana dövlət səfəri çərçivəsində iyulun 12-də İslamabadda Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasının ərazisindəki "Milli Aerokosmik Elm və Texnologiya Parkı"nda (NASTP) hərbi sərgi ilə tanış olub. Sərgidə Pakistan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri, kosmos, radar, simsiz rabitə sistemləri, simulyatorlar, kibertexnologiyalar, informasiya texnologiyaları, proqram təminatı və süni intellekt sahələrində məhsullar nümayiş etdirilib.

***M.ABDULLAYEV***

# Azərbaycanın kolonializmə qarşı mübarizədəki aktiv rolu

## Ölkəmiz beynəlxalq hüquq normalarından və ədalət prinsipindən çıxış edir

Keçmişin bir sıra qalıqları Yer üzündən birdəfəlik silinməlidir. Bu sırada, heç şübhəsiz ki, müstəmləkəçilik ön sırada dayanır. Kolonializmin hansısa bir formada mövcudluğu müasir dünyanın reallıqları və çağırışları ilə qətiyyən bir araya sığmır. Bəşəriyyətin yüksək inkişaf səviyyəsinə çatdığı, demokratik dəyərlərin, insan hüquq və azadlıqlarının önə çıxdığı indiki dövrdə bir ölkənin, bir xalqın başqa bir ölkənin və xalqın üzərində hegemonluq etməsi, onun sərvətlərini talaması, qul əməyinə və sümürmə siyasətinə rəvac verməsi dözülməzdir. Kolonializmə qarşı mübarizə cəbhəsi genişləndirilməli, bütün dövlətlər bu prosesə qoşulmalı və həmrəylik göstərməlidirlər.

**Afrikada, dənizaşırı ərazilərdə kolonializmin kədərli izləri**

Dünya üzrə müstəmləkəçiliyə qarşı mübarizə dalğası xüsusilə birinci dünya müharibəsindən sonra əkəmiyyətli dərəcədə genişlənib. Nəticədə, ayrı-ayrı dövlətlər müstəmləkəçilik siyasətlərindən əl çəkmək və əvvəllər ağır şərtlər altında idarə etdikləri ərazilərdən çıxmaq, ölkələrin, xalqların müstəqilliyini tanımaq məcburiyyətində qalıblar. Ancaq elə dövlətlər də var ki, bu üzqarası siyasətlərindən heç bir vəchlə əl çəkmək istəmirlər. Fransa buna ən tipik nümunədir. Hazırda bu ölkə sümürmə siyasətindən bəhrələnən dövlətlər sıyahısında antirekord göstəricilərə malikdir, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Bu gün Afrikada, dənizaşırı ərazilərdə Fransa kolonializminin çoxsaylı kədərli izlərini görmək mümkündür.

Fransanın müstəmləkəçilik siyasətinin təxminən 500 illik tarixi var. Bu ölkə istilalar sayəsində Afrikanın qərbində və şimalında 20-dən çox ölkəni öz təsir dairəsinə qatmağa nail olub. Afrikanın ərazilərinin təxminən 35 faizi 300 il ərzində tamamilə Fransanın nəzarətində qalıb. Təbii ki, zaman ötdükcə Fransa müstəmləkəçilik siyasətində müəyyən forma dəyişiklikləri etmək məcburiyyətində qalıb. Ancaq zaman və forma dəyişsə də, ənənəvi müstəmləkəçilik neokolonializmlə əvəzlənsə də, üzqarası siyasətinin mahiyyəti dəyişməyib. Fransa Seneqal, Niger, Kamerun və Mavritaniya kimi bir çox Afrika ölkələrində, xüsusilə də Əlcəzair və Ruandada daxili qarşıdurma və soyqırımı üçün məsuliyyət daşıyır.



XX əsrdə 30 il ərzində Fransız Polineziyasında Fransa tərəfindən 200-ə yaxın, 6 il ərzində isə Əlcəzairdə 17 nüvə sınağı həyata keçirilib. Həmin nüvə sınaqlarının ağır fəsadları Polineziya və Əlcəzair xalqları tərəfindən bu gün də yaşanmaqdadır. Bir çox təşkilatın etdiyi çağırışlara uyğun olaraq nüvə sınaqlarının vurduğu ziyan qiymətləndirilməlidir və Fransa tərəfindən müvafiq təzminatlar ödənilməlidir.

Əlcəzairin 132 il davam edən işğalı dövründə 1,5 milyondan artıq insan Fransa dövləti tərəfindən qətlə yetirilib, bu səbəbdən ölkə "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Fransız ordusunun törətdiyi qətliamların miqyası və coğrafiyası o qədər genişdir ki, sadalamaqla bitirmək çətindir. Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələr bu gün də bu işğalın ağır fəsadlarını hiss edir.

Fransa keçmiş müstəmləkələrində kolonializmin yeni üsullarını, o cümlədən iqtisadi asılılıq vasitələrini işə salmaqla yanaşı, tez-tez hərbi müdaxilələrdən də çəkinmir. Son illərdə Yelisey Sarayı Burkino-Faso, Mərkəzi Afrika Respublikası, Çad və Malidə bu vasitəyə əl atıb. Ümumiyyətlə, Fransa 1960-cı ildən 1990-cı illərin ortalarınadək 122 dəfə Afrika ölkələrinə hərbi müdaxilə edib. Sonuncu dəfə rəsmi Paris bir qədər bundan əvvəl bədnam "konstitusiya islahatlarına" qarşı çıxan yerli kanak xalqının etirazlarını yatırtmaq üçün Yeni Kalidoniyaya hərbi qüvvələr göndərdi. Hərbi müdaxilə insan faciələri ilə nəticələnsə də, kanak xalqı milli kimliyini qorumaq naminə mücadilədən geri çəkilmədi və Makron "islahatları" müvəqqəti qaydada dayandırmaq məcburiyyətində qaldı. Həmin "islahatların" gerçək mahiyyəti isə aboregen xalqın seçki hüquqlarının məhdudlaşdırılması, Yeni Kaledoniyada Yelisey Sarayının təsir imkanlarını mütləq mənada genişləndirmək idi.

Faktların siyahısı çox uzundur. Lakin sadalanan azsaylı nümunələr də Fransanın müstəmləkə cinayətləri barədə konkret təsəvvür yaradır. Yelisey Sarayı bunlardan nəticə çıxartmalı və üzqarası siyasətindən birdəfəlik geri çəkilməlidir.

**Azərbaycanın qətiyyətli mövqeyi**

Azərbaycan hər zaman öz siyasətində beynəlxalq hüquq normalarından və ədalət prinsipindən çıxış edir. Fransanın indiki dövrdə müstəmləkəçilk siyasətini davam etdirməsi isə nə bu ölkənin bəyan etdiyi dəyərlərə, nə beynəlxalq hüquqa, nə də ədalət prinsipinə sığır. Azərbaycan qətiyyəli mövqe sərgiləyərək Fransanın ən ağır şərtlər altında həyata keçirdiyi kolonializm siyasətini pisləyir və azadlıq mübarizəsinə qalxan xalqlara dəstək verir. Deyə bilərik ki, respublikamız bu sahədə bütün dünyaya cəsarət nümunəsi göstərir və kolonializmə qarşı mübarizənin önündə gedir. Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə Prezident İlham Əliyev bu problemi beynəlxalq səviyyədə bir neçə dəfə müzakirələrə çıxarıb. Dövlətimizin başçısı Fransanın müstəmləkə siyasətini tənqid edərək deyib ki, bu ölkə öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir. Azərbaycanın təklifləri əsasında Bakı Təşəbbüs Qrupunun yaradılması da məhz Frasanın müstəmləkəçilik siyasətinə qarşı mübarizəyə qalxan xalaqlara dəstək verməkdir. 2023-cü ildən fəaliyyətə başlayan Bakı Təşəbbüs Qrupu artıq beynəlxalq platformaya çevrilib. Təsisat müstəmləkəçilik və neokolonializmlə mübarizənin ardıcıl şəkildə dəstəklənməsi çərçivəsində Cenevrə və İstanbulu da əhatə etməklə Bakıdan Nyu-Yorka qədər 10-a yaxın beynəlxalq konfrans təşkil edib. Son zamanlar Bakı Təşəbbüs Qrupunun fəaliyyəti hökumətlərarası səviyyədə vurğulanıb. Təşkil edilən bütün beynəlxalq tədbirlərdə Polineziya, Korsika, Melaneziya, Karib dənizi və Antil adalarında məşğulluq, mənzil təminatı sahələrində ayrı-seçkilik halları, təbii sərvətlərin istismarı barədə ətraflı məlumat verilib, Fransa hökumətinin himayəsi altında təşkil edilən kütləvi immiqrasiya faktları diqqətə çatdırılıb.




Məlumdur ki, son vaxtlarda Fransız Polineziyası müstəqillik əldə etmək üçün son və qəti mübarizəyə qalxıb. Bu mübarizədə Bakı Təşəbbüs Qrupu aborogen xalqın, Fransanın təzyiqlərinə baxmayaraq mücadiləni davam etdirən siyasi partiyaların yanındadır. Qurumun icraçı direktoru Abbas Abbasovun məlumatına görə, artıq Bakı Təşəbbüs Qrupu ilə Fransız Polineziyasının "Tavini Huiraatira" Partiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Bir qədər bundan əvvəl Milli Məclisdə "Fransız Polineziyasının dekolonizasiya hüququ - çağırışlar və perspektivlər" mövzusunda keçirilən konfransda "Tavini Huiraatira" partiyasının Baş katibi Viktor Maamaatuaiahutapu diqqətə çatdırıb ki, 40 il əvvəl müstəqillik uğrunda mübarizədə onlar kiçik bir qrup idilər. Bu kiçik qrupla və məhdud imkanlarla torpaqlarını onların əllərindən alan böyük qüvvəyə qarşı mübarizə aparırdılar. Bu mübarizə indi də qətiyyətlə davam etdirlir.

Bakı Təşəbbüs Qrupu həmçinin Yelisey Sarayının bədnam "konstitusiya islahatlarına" qarşı sərt müqavimət göstərən Yeni Kaledoniyaya dəstək verir. Təsisat Yeni Kaledoniya hadisələri ilə bağlı xüsusi bəyanat yayıb.

Bu günlərdə isə paytaxtımızda Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adaları qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə birinci qurultay keçirilir. Qurultayın keçirilməsi ideyası Fransanın dənizaşırı ərazilərinin müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatlarına məxsusdur. Onlar Azərbaycana ümid yeri kimi baxırlar.

***Mübariz FEYİZLİ***

# Vyetnam Prezidenti: İqtisadi-ticari tərəfdaşlıq davamlı inkişaf edir, ticarət dövriyyəsi artır

Vyetnam Asiya və Avropa arasında yerləşən və onları birləşdirən Türk Dövlətləri Təşkilatının üzvləri ilə əməkdaşlığı hər zaman yüksək qiymətləndirir, əlaqələri daha da gücləndirmək istəyir.

AZƏRTAC Vyetnam Xəbər Agentliyinə istinadla xəbər verir ki, bu sözləri Vyetnamın Prezidenti To Lam Azərbaycanın, Türkiyənin və Qazaxıstanın Hanoydakı səfirləri ilə görüş zamanı deyib. O, Vyetnamın Azərbaycan, Türkiyə və Qazaxıstan ilə ənənəvi dostluğunun, çoxşaxəli əməkdaşlığının mütəmadi görüşlər sayəsində bütün səviyyələrdə möhkəmləndiyini diqqətə çatdırıb, yüksək səviyyəli təmasların davam etdirilməsinin vacibliyini vurğulayıb.

Vyetnam və Türk dövlətlərinin BMT də daxil olmaqla, beynəlxalq və regional platformalarda səmərəli əlaqələndirmənin, qarşılıqlı dəstəyin davamlı olmasının əhəmiyyətini vurğulayan Prezident To Lam diqqətə çatdırıb ki, ölkəsinin Azərbaycan, Türkiyə və Qazaxıstanla iqtisadi-ticari tərəfdaşlığı davamlı inkişaf edir, ticarət dövriyyəsi artır. Bununla belə, Vyetnamın bu 3 ölkə ilə iqtisadi-ticari əlaqələri, xüsusən də nəqliyyat, kənd təsərrüfatı, təhsil, mədəniyyət, idman, turizm sahələrində və regionlararası əməkdaşlığı mövcud potensialı əks etdirmir. O, Türk Dövlət Təşkilatlarından olan sahibkarlar üçün biznes və investisiya fəaliyyəti üçün Vyetnamda ən yaxşı imkanların yaradılacağını bildirib.

Bu il Vyetnamın sabiq Prezidenti Ho Şi Minin Azərbaycana səfərinin 65-ci ildönümü olduğunu diqqətə çatdıran Azərbaycanın Vyetnamdakı səfiri Şövqi Mehdizadə həmin səfərin iki xalq arasında dostluğun və tərəfdaşlığın, xüsusən də neft-qaz sahəsində əməkdaşlığın əsasını qoyduğunu, səfərdən sonra xeyli vyetnamlı gəncin ölkəmizdə sözügedən sahədə təhsil alaraq qabaqcıl mütəxəssislər kimi yetişdiklərini deyib. O, Azərbaycanın Hanoydakı səfirliyinin bu münasibətlə müxtəlif tədbirlər keçirməyi planlaşdırdığını bildirib. Görüşdə Türkiyənin və Qazaxıstanın səfirləri Korhan Kemik və Kanat Tumiş ölkələrinin Vyetnamla əlaqələrindən danışıblar.



# YAP İdarə Heyətinin iclası keçirilib

İyulun 17-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi haqqında məlumat verib. İclasda ilk olaraq Azərbaycan Respublikasının Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədlərin irəli sürülməsi məsələsinə baxılıb.

Tahir Budaqov qeyd edib ki, Azərbaycan müasir dövlətçilik tarixinin mühüm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə uğurla yekun vuraraq yeni dövrə qədəm qoymuşdur: "Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə bir günlük lokal xarakterli antiterror tədbirləri nəticəsində qazandığımız möhtəşəm qələbələr Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin, konstitusiya quruluşunun bərpasını və üçrəngli bayrağımızın işğaldan azad edilmiş bütün ərazilərimizdə ucaldılmasını təmin etmişdir. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ölkəmizin sosial-iqtisadi tərəqqisinə, hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə, milli və regional təhlükəsizliyin təmin olunmasına hədəflənmiş uzaqgörən siyasəti sayəsində istər ölkə daxilində, istərsə də bütövlükdə, bölgədə yeni reallıqlar yaranmış və ölkəmizin qarşısında yeni perspektivlər açılmışdır".



YAP Sədrinin müavini vurğulayıb ki, 2024-cü ilin fevral ayında keçirilmiş Zəfər seçkisində xalqın mütləq əksəriyyəti Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi dəstəkləməklə həyata keçirilən siyasətə, Heydər Əliyev yoluna dərin inamını bir daha nümayiş etdirmişdir: "Hazırda ölkəmiz daha bir mühüm ictimai-siyasi proses ərəfəsindədir. Müstəqillik tariximizdə ilk dəfə olaraq 2024-cü il sentyabrın 1-də ölkəmizin bütün ərazisində Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçiriləcəkdir. Ölkəmizin siyasi sistemində aparıcı rola malik Yeni Azərbaycan Partiyası bu seçkilərə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyimiz möhtəşəm ümumxalq Zəfərindən sonra yaranmış reallıqlardan irəli gələn hədəflərlə qatılır".



Sonra Azərbaycan Respublikasının Milli Məclisinə 2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş şəxslərin siyahısı elan edilib və müzakirələrdən sonra təsdiq olunub.

YAP Sədrinin müavini Əli Əhmədov, partiyanın İdarə Heyətinin üzvləri Hikmət Məmmədov, Tahir Mirkişili, Bahar Muradova, Anar İsgəndərov, Elmar Qasımov, Eldar İbrahimov, Azər Badamov və Kamal Cəfərov çıxış edərək bildiriblər ki, Azərbaycanın müasir dövlətçilik tarixinin olduqca mühüm bir dönəmində qarşıda duran strateji əhəmiyyətli hədəflərin reallaşdırılması üçün ölkənin ali qanunverici orqanı olan Milli Məclisin üzərinə də böyük vəzifələr düşür. Belə bir tarixi mərhələdə parlamentdə təmsilçiliyin şərəfli, eyni zamanda, məsuliyyətli olduğu vurğulanıb, göstərilən yüksək etimada görə Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə dərin minnətdarlıq ifadə olunub.

Bundan sonra seçki komissiyalarının tərkibinə təklif olunan məşvərətçi səs hüquqlu üzvlər, seçki dairə və məntəqələrində səsvermə günü müşahidə aparacaq şəxslərlə bağlı məsələyə baxılıb və onların siyahıları təsdiq edilib.

İclasa yekun vuran YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov namizədlərə uğurlar arzulayaraq ölkə başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin onlara göstərdiyi yüksək etimadı doğrultmaq üçün səylərini əsirgəməyəcəklərinə, yeni dövrdə qarşıda duran vəzifələrin icrası üçün var gücü ilə çalışacaqlarına əminliyini ifadə edib.

Tahir Budaqov qeyd edib ki, Yeni Azərbaycan Partiyası bu zamana qədər Azərbaycanın yüksəlişində və çox mühüm tarixi nailiyyətlərin əldə edilməsində müstəsna rol oynamış, bundan sonra da ölkəmizin tərəqqisi naminə reallaşdırılacaq strateji kursa - Heydər Əliyev yolunun davamçısı olan cənab İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasətinin həyata keçirilməsinə öz töhfələrini verəcəkdir: "İnanırıq ki, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi, Heydər Əliyev yoluna sədaqətinin və Prezident İlham Əliyevin Zəfər yürüşünün davamına birmənalı dəstəyinin təsdiqi olacaqdır"



















# Qarabağ və Şərqi Zəngəzurda sahibkarların sayı artır

2024-cü il iyulun 1-nə olan tarixə qədər Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında fəaliyyət göstərən mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin sayı 4 978, fərdi sahibkarların sayı isə 91881 təşkil edib. Sözügedən tarixə Qarabağ iqtisadi rayonunda 3791 mikro, 186 kiçik, 84 orta və 7 iri sahibkarlıq subyekti qeydə alınıb. Şərqi Zəngəzur iqtisadi rayonunda 835 mikro, 50 kiçik, 20 kiçik və 5 iri sahibkarlıq subyekti fəaliyyət göstərib. Beləliklə, Qarabağ iqtisadi rayonunda fəaliyyət göstərən fərdi sahibkarların sayı 86373, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 5508 olub.



## İnvestisiya təşəbbüsləri dayanmadan artır

Bu statistika ona dəlalət edir ki, artıq Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında iqtisadi dəyər yaradan sahələr formalaşır və biznesin ilk addımları öz müsbət səmərəsini göstərməyə başlayır. İki il əvvəl fəaliyyətə başlamış Zəngilandakı "Dost Aqropark" layihəsi artıq öz müsbət nəticələrini verməkdədir. Bu ərazidə ötən il kənd təsərrüfatı məhsullarının istehsalı ümidverici göstəricilərlə yadda qalıb. Yaxud, Cəbrayıl rayonundakı "Araz Vadisi İqtisadi Zonası" və Sənaye Parkının yeni formalaşan sənaye potensialının imkanları böyüyür. Bu bölgədə Rusiyanın "Kamaz", İtaliyanın "İveco" markalı avtomobilləri üçün servis mərkəzi yaradılıb və rezidentlərin sayı artmaqdadır. Artıq 5 sahibkarlıq subyekti Parkın rezidenti kimi, 1 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb və investisiya təşəbbüsləri dayanmadan artır.

Eləcə də Qubadlı və Zəngilanda taxılçılıq, o cümlədən üzümçülük, meyvəçilik, fındıqçılıq sahələri, heyvandarlıq təsərrüfatları, həmçinin, Kəlbəcər və Laçında arıçılıq təsərrüfatları yaradılıb. Türkiyə, İsrail, Rusiya və digər ölkələrə məxsus sahibkarlar bir neçə investisiya layihəsi icra etməkdədir. Türkiyə şirkətləri işğaldan azad edilmiş ərazilərdə artıq sərmayə proqramlarının icrasına başlayıbdır. Türkiyənin "Eti Bakır A.Ş." şirkəti Qaşqaçay filiz yatağında, "Artvin Maden A.Ş." şirkəti Elbəydaş və Ağduzdağ filiz yataqlarında neçə aydır ki, fəaliyyət göstərir. Ağdam Sənaye Parkında işlərə start verilib.









Bütün bu amillər Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarının ilk iqtisadi artımının nümayişidir və bölgə artıq məhsul buraxlışı üçün hərəkətə gətirilib və işğaldan azad edilmiş ərazilər iqtisadi güc mənbəyi kimi ölkə iqtisadiyyatında əlavə dəyərin yaradılmasına inteqrasiya olunur.

Qeyd edək ki, azad edilmiş ərazilərdə yaşayan sakinlərin biznes fəaliyyəti üçün də lazımi hüquqi-iqtisadi əsaslar yaradılmaqdadır. Hökumət onların biznes fəaliyyəti ilə məşğul olmaları üçün bir çox iqtisadi-vergi güzəştləri tətbiq etməkdədir. Belə ki, onlar 10 il müddətinə mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergidən azad olunub, məcburi dövlət sosial sığorta haqqı subsidiyalaşdırılır, yəni sığorta vergisini dövlət özü ödəyir.Bundan başqa, bölgədə vergi uçotuna alınan və istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə ödədikləri vəsaitin 20 faizi məbləğində maliyyə yardımı ödənilir.

## Maliyyə yardımı ödənilir

Sahibkarların maliyyə əlçatanlığının artırılması üçün güzəştli kreditlər verilir. Sahibkarlar bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri kreditlər üzrə dövlət zəmanəti və subsidiyadan yararlana bilirlər. İnvestisiya layihəsi həyata keçirən sahibkarların məbləği 5 milyon manatadək, müddəti 7 ilədək, illik faiz dərəcəsi 15 faizdək, olan biznes kreditlərinin 90 faizlik hissəsinə dövlət zəmanəti verilir. Bu kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi 36 aya qədər müddətdə dövlət tərəfindən subsidiyalaşdırılır.

## Sosial layihələrin icrası davam edir

Sahibkarlıq sektorunun azad edilmiş ərazilərdə fəaliyyətinin təmin edilməsi bu bölgəyə qayıdan sakinlərin məşğulluğuna da müsbət təsir göstərməkdədir. Ötən müddət ərzində Zəngilan rayonunun Ağalı kəndində inşa edilmiş ilk "Ağıllı" kəndinə, Füzuli şəhərinə, Laçın şəhərinə və Zabux, Sus kəndlərinə, Suqovuşana, eləcə də Şuşa və Xocalıya qayıdan insanların məşğulluq imkanları ilə bağlı nəzərdə tutulan plan üzrə tədbirlər həyata keçirilib. Zəngilanın Ağalı kəndinə köç edən ailələr işlə təmin olunur. Ötən dövr ərzində həmin kəndlərdə, xüsusilə Ağalıda geniş məşğulluq infrastrukturları yaradılıb. "KapitalBank"ın filialı, "Asan" və "Dost" Xidmət mərkəzləri, orta məktəb və uşaq bağçalarında, tikiş müəssisəsində, çörəkbişirmə sexlərində, mağaza və marketlərdə yüzlərlə iş yeri yaradılıb. Hökumət bu kəndlərdə həm yaşayış üçün ən müasir şəraiti təmin edib, həm də sakinlərin sosial vəziyyətinin yaxşılaşdırılması üçün lazım olan sosial layihələrin icrasını davam etdirir.

## Yeni infrastruktur

İşğaldan azad olunmuş ərazilərin zəngin turizm potensilları mövcuddur. Artıq bölgədə hotel və turizm obyektlərinin əsası qoyulub, bir neçə hotel istifadəyə verilib. Şuşada "Qarabağ" və "Xarıbülbül" hotelləri, Xankəndində "Qarabağ" və "Palace" hotelləri istifadəyə verilib, fəaliyyət göstərir, Suqovuşanda böyük turizm istirahət kompleksinin yaradılması işləri davam etdirilir, eləcə də Zəngilan rayonunun Ağalı kəndində "Ağalı" hoteli istifadəyə verilib. Bütün bunlar həmin bölgədə məskunlaşan insanların iş yerləri ilə təminatında mühüm rol oynamaqdadır. Təkcə, hotel və istirahət mərkəzlərində 300-dən çox insanın məşğulluğu təmin edilib. Bundan başqa, Füzuli və Laçına, Zabuxa qayıdan sakinlərin ənənəvi məşğuliyyətinin bərpa olunması, heyvandarlıq məqsədilə kiçik ailə təsərrüfatlarının, o cümlədən heyvandarlıq, arıçılıq, bağçılıq və s. fərdi və kiçik ailə bizneslərinin yaradılması məqsədilə hökumət tərəfindən müvafiq layihələrin icrasına başlanılıb.

***ELBRUS***

# Kolonializmə qarşı birgə mübarizə

## Fransanın müstəmləkə altında saxladığı ərazilərdəki Müstəqillik Hərəkatlarının Qurultayı keçirilir

İyulun 17-də Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə Bakıda birinci Qurultayın açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, Qurultayın keçirilməsi ideyası Fransanın dənizaşırı ərazilərinin müstəqilliyi uğrunda mübarizə aparan siyasi partiya və hərəkatlarına məxsusdur. Niderland koloniyaları olan Bonayre və Sən-Martin adalarından 3 təşkilat Qurultayın işində fəxri qonaq qismində iştirak edib. Açılış nitqi ilə çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, Yeni Kaledoniyada baş verən son iğtişaşlar zamanı, Fransa polisi tərəfindən müstəqillik hərəkatlarının üzvləri qanunsuz həbs olunub. Onlarla terrorçu kimi davranılıb və gizli şəkildə Parisə aparılaraq müxtəlif işgəncələrə məruz qalıblar. Onlar arasında azyaşlı uşaqları olan qadınlar da var. Bakı Təşəbbüs Qrupu siyasi məhbusların ailələrinə və onları müdafiə edən vəkillərə yardım göstərəcəyini bəyan edir.



Bugünkü tədbirdə həmin siyasi məhbusların bəzilərinin ailə üzvlərinin iştirak etdiklərini diqqətə çatdıran A.Abbasov vurğulayıb: "Bakı Təşəbbüs Qrupu Fransa koloniyalarında yaşayan gənclərə Azərbaycanın ali təhsil müəssisələrində təhsil almaq imkanı verən tələbə-təhsil təqaüdü elan edib. Artıq bu ildən başlayaraq həmin ərazilərdən olan gənclər bu təqaüddən yararlana biləcəklər".

Sonra çıxış edən Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin Baş katibi Jan-Jakob Bisep Bakıda belə bir Qurultayın keçirilməsinə dəstək göstərdiyi üçün Azərbaycan hökumətinə təşəkkürünü bildirərək deyib: "Azərbaycan cəsarətli addımlar atır. BMT-nin çətiri altında Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə biz ilk dəfə Bakıda belə bir tədbir keçiririk".

O, bu Qurultayın tarixi xarakter daşıdığını qeyd edərək bildirib: "Biz kolonializmə qarşı birlikdə mübarizə apara bilərik. Bizim məqsədimiz dünya ictimaiyyətinin diqqətini bu məsələyə yönəltməkdir. Biz əlimizdən gələni edəcəyik ki, həmrəyliyimizi möhkəmləndirək, dünyada daha çox görünə biləк. Fransa koloniyalarına qarşı cinayətlər törədən dövlətdir. Məqsədimiz dünyanı Fransaya təsir göstərmək üçün səfərbər etməkdir".

Daha sonra Qurultayda Bakı Təşəbbüs Qrupunun fəaliyyətinə dair 1 il ərzində keçdiyi uğur yolu barədə videoçarx nümayiş etdirilib. İcraçı direktor Abbas Abbasov Qurultay iştirakçıları üçün Bakı Təşəbbüs Qrupunun birillik fəaliyyətinin yekununa dair qısa təqdimatla çıxış edib. "Yeni Kaledoniyanın müstəqillik yolu və yeni çağırışlar" mövzusunda müzakirələrlə davam edən tədbirdə digər iştirakçıların çıxışları dinlənilib.

Yeni Kaledoniyanın xarici işlər naziri Mikael Forrest Bakıda keçirilən tədbirdə iştiraklarına görə Azərbaycan hökumətinə və buna şərait yaradan bütün insanlara təşəkkürünü ifadə edib. Deyib ki, Fransanın koloniyaları ilə bağlı bu Qurultayda biz çətin yoldan uzaqlaşmaq üçün həll yolu tapmalıyıq. "Biz plaftormalarımızı möhkəmləndirməliyik, müzakirələr aparmalıyıq. Siyasi fəaliyyətimizi elə qurmalıyıq ki, çağırışlara cavab tapa biləк. Bakı Təşəbbüs Qrupu bizə imkan yaradıb, bunu dəyərləndirməliyik. Bir araya gələrək müxtəlif gələcək platformalar barədə düşünməliyik. Yeni dünya düzənində öz yerimizi tapmalıyıq", - deyə o əlavə edib. Sonra çıxış edən Yeni Kaledoniya Konqresinin üzvü İzabella Kaloi vurğulayıb ki, mayın 13-dən bəri Yeni Kaledoniyada yaşananları hamı bilir. Azərbaycana gəlmək, bu qurultayda iştirakımızın məqsədi Fransa dövlətinin bizə qarşı aktlarının qəbuledilməz olduğunu qətiyyətlə bildirməkdir. Biz bunu sərt şəkildə qınayırıq. Burada əsasən irqçi polislərdən söhbət gedir. Yazılan hesabatlar, insanların bu barədə dedikləri hələ də reallığa çevrilmir. Nəticə olaraq insanlarımıza qarşı düzgün hərəkət edilmir, hazırkı vəziyyətdə regionda qarşıdurmalar, yanğınlar baş verir. İllərdən bəri yaranmış problemlər gündən-günə daha geniş vüsət alır.





İ.Kaloi bildirib ki, bununla bağlı keçirilən tədbirlər, əlbəttə, məsələni kökündən həll etmir. "Deməli istərdim ki, biz repressiyaya məruz qalmışıq. Bütün bunların yaranma səbəbi çox təəssüf ki, bizim səsvermə hüquqlarımızın ləğv edilməsidir. Bunu Fransa dövləti edib, hüquqlarımızın tapdalanması yolverilməz və qəbuledilməzdir. Biz bununla bağlı məlumat verdik, təkliflər hazırladıq və əksəriyyət də bu təklifə müsbət yanaşdı. Amma Fransa dövləti bizi dinləmək istəmədi. Ümumiyyətlə, səsvermə hüququnun dondurulması qərarı seçicilərə, mədəniyyətimizə və müqəddəratımıza qarşı olmaq deməkdir", - deyə İzabella Kaloi əlavə edib. O, qurultayın təşkilinə görə bir daha Bakı Təşəbbüs Qrupuna təşəkkürünü bildirib.

Yeni Kaledoniya parlamentinin üzvü Maria Saliqa diqqətə çatdırıb ki, Fransa dövlətinin hərəkətləri qəbuledilməzdir və beynəlxalq səviyyədə müzakirə olunmalıdır. Makron Fransası bütün demokratiya qaydalarına üz çevirib. Maria Saliqa qeyd edib ki, Fransız Polineziyasında bu ölkənin atom, nüvə testlərini xatırlayırıq. Həmin ərazilərdəki xalqlar bundan uzun müddət əziyyət çəkdilər. "Fransa terrorçu dövlətdir. Azad etmək istəmədiyi ərazilərdə hökmranlığını sürdürür", - deyə o vurğulayıb.

Müzakirələr zamanı çıxış edən digər iştirakçılar bildiriblər ki, Fransa hakimiyyəti onların öz müqəddəratını təyinetmə hüququnu tanımalı və müstəqillik proseslərini dəstəkləməlidir. Onlar müstəmləkə siyasəti nəticəsində iqtisadi və mədəni zərərlərdən bəhs edərək, yerli əhalinin hüquqlarının qorunmasının və inkişafının təmin olunmasının vacibliyini diqqətə çatdırıblar.

Qurultay işini "Beynəlxalq Azadlıq Cəbhəsinin yaranması" mövzusunda müzakirələrlə davam etdirib.

İki gün davam edəcək Qurultay iştirakçı tərəflərə müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə vahid platforma yaradaraq Fransa müstəmləkəçiliyinə qalib gəlmək üçün nəticəyönümlü fəaliyyətin əlaqələndirilməsinin yolları barədə müzakirə aparmaq imkanı yaradacaq. Həmçinin koloniyaların təmsilçiləri öz müqəddəratını təyin etmək mübarizəsində ən səmərəli təcrübə və strategiyalar barədə fikirlərini bölüşəcəklər.

Qurultay koloniyalarda Fransa hökuməti tərəfindən bu ərazilərin sahibləri olan yerli xalqlara qarşı törədilən çoxsaylı cinayətlər və qeyri-qanuni hərəkətlər barədə beynəlxalq ictimaiyyətin məlumatlılığının artırılmasına, ümumilikdə XXI əsrin bəlalarından biri olan müstəmləkəçilik probleminə diqqət çəkməyə töhfə verəcək.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" mövzusunda konfransın iştirakçıları tərəfindən yaradılıb. Artıq bir ildir ki, Qrup müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir. Bu xüsusda, Bakı Təşəbbüs Qrupu tərəfindən artıq 15-dək beynəlxalq konfrans təşkil edilib. Onlardan 4-ü BMT-nin Nyu-York, Cenevrə və Vyanadakı qərargahlarında, biri İstanbulda, digərləri isə Bakıda keçirilib.

# 6,1 milyard manatdan çox büdcə profisiti...

## Qeyri-neft yığımlarının həcmi 10 milyard manatı ötüb

Azərbaycanda davam edən iqtisadi inkişaf 2024-cü ilin yanvar-iyun aylarında fiskal yığımların da artmasında mühüm rol oynayıb. Birinci yarımillikdə müsbət sosial-iqtisadi inkişaf göstəriciləri, ələlxüsus da qeyri neft-qaz sektorunda 6,9 faiz artımın baş verməsi iqtisadi yığım sütunlarının qeyri-neftə əsaslanmasına səbəb olub. Qeyri-neft sektorunda biznes sektorunun fəallığının yüksəlməsi, tikinti-inşaat, xidmət, turizm sahələrində yeni əlavə dəyərin formalaşması, neftdən kənar sahələrdə yığım mənbələrinin genişlənməsi, şəffaflaşma ilə bağlı görülən tədbirlər 2024-cü ilin 6 ayında büdcə-fiskal yığımlarda əhəmiyyətli artımı təmin edib.

Birinci yarımillikdə dövlət büdcəsinin gəlirləri 16,9 milyard manat proqnoza qarşı 18,9 milyard manata yaxın olub ki, nəticədə 1,9 milyard manat və ya 11,2 faiz əlavə yığımlar əldə olunub. Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə vergi daxilolmaları 8,2 milyard manat təşkil edib ki, həmin vəsaitlərin 70,9 faizi və ya 6 milyard manata yaxını qeyri-neft sektorunun payına düşüb. Bu, əvvəlki ilin birinci yarısı ilə nisbətdə 675 milyon manat və ya 13 faiz artıq vergi yığımı deməkdir. Bu, qeyri-neft yığımlarıdır.

Ümumilikdə, vergi daxilolmaları büdcə proqnozundan əlavə olaraq 1 milyard 53,8 milyon manat və ya 14,6 faiz, gömrük daxilolmaları 418,2 milyon manat və ya 14,8 faiz, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar üzrə 3,7 milyon manat və ya 26,2 faiz, sair daxilolmalar



üzrə 328,3 milyon manat və ya 5,1 dəfə çox olub. Büdcə gəlirlərində vergi orqanlarının payı 44 faizə çatıb ki, bu da son illərin ən yüksək rəqəmidir.

2024-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsinin qeyri-neft sektoru üzrə daxilolmaların 58,5 faizini və ya 5,8 milyard manatını vergi daxilolmaları, 32,4 faizini və ya 3,2 milyard manatını gömrük daxilolmaları təşkil edib. Yığımların 2,4 faizi və ya 241,5 milyon manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, 2,4 faizi və ya 250,0 milyon manatı Mərkəzi Bankın mənfəətindən daxilolmalar, 4,1 faizi və ya 408,5 milyon manatı sair daxilolmalardır. Büdcədə neftqaz sektoru üzrə daxilolmalar cəmi 8,7 milyard manat təşkil edib. Beləliklə, qeyri-neft sektoru üzrə cəmi yığımlar 10 milyard manatı ötüb.

Birinci yarımillikdə dövlət büdcəsinin xərcləri, o cümlədən əməkhaqları, müavinətlər, pensiyalar, dövlət borcu üzrə öhdəliklərin və digər zəruri xərclərin maliyyələşdirilməsi büdcə və büdcədən maliyyə yardımı və ya digər qaydada vəsait alan təşkilatların dövlət xəzinədarlıq orqanlarına təqdim etdikləri xərc sifarişləri əsasında tam və vaxtında icra edilib. Büdcə xərcləri bu müddətdə 16 milyard manat təşkil etməklə, proqnoza qarşı 2,3 milyard manata yaxın çox icra olunub. Xərclərin 9,8 milyard manatı (61,3 faiz) cari xərclərə, 4,9 milyard manatı (30,8 faiz) əsaslı xərclərə yönəldilib. Büdcədə 1,3 milyard manata yaxın vəsait isə dövlət borcuna xidmətlə bağlı xərclərə sərf edilib. Büdcə xərclərinin funksional təsnifatına əsasən, təhsilə daha çox vəsait ayrılıb, proqnozdan əlavə 31,5 faiz çox pul xərclənib. Müdafiə və milli təhlükəsizlik xərcləri də 26,9 faiz artıq icra edilib. Sosial müdafiə və sosial təminat xərclərinə isə proqnozdan əlavə 23,1 faiz vəsait yönəldilib. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə illik nəzərdə tutulmuş 3,8 milyard manat vəsaitin 51,1 faizi və ya 1 milyard 953,5 milyon manatı istifadə olunub.



2024-cü ilin yanvar-iyun aylarında Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 25,2 milyon manat xərclənib ki, həmin vəsaitlər Sumqayıt şəhəri ərazisində avtomobil yollarının əsaslı təmirinə, Qarabağ Universitetinin fəaliyyətinin təşkilinə maliyyə dəstəyinin göstərilməsinə, dini qurumlara maliyyə yardımının göstərilməsinə və digər tədbirlərin icrasına sərf olunub. Dövlət büdcəsinin ehtiyat fondundan isə 11,4 milyon manat xərclənib.

2024-cü ilin 6 ayı ərzində dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərin həcmi 1 milyard 972,6 milyon manat vəsait nəzərdə tutulub ki, onun 170 milyon manatı daxili dövlət borcuna, 1,1 milyard manatı xarici dövlət borcuna, 250 milyon manatı isə faiz borcuna və digər sahələrə xərclənib. Xarici borclanma həsabına icrası davam etdirilən layihələr çərçivəsində xarici dövlət borcu bu müddətdə 5,3 milyard dollara bərabər olub. Daxili dövlət borcalmasının həcminin artırılması, dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi, dövlət borcunun orta və uzunmüddətli gəlirlik əyrisinin formalaşdırılması və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"sına uyğun olaraq xarici borcun daxili borcla əvəzlənməsi istiqamətində məqsədyönlü borclanma siyasətinin həyata keçirilməsi nəticəsində daxili dövlət borcu 16,5 milyard manat təşkil edib.

2024-cü ilin birinci yarımilliyində icmal büdcənin gəlirləri isə 24,3 milyard manat icra olunub. İcmal büdcədə 6,1 milyard manatdan çox büdcə artıqlığı (profisit) yaranıb.

**ELBRUS**

# "Yaşıl enerji" istehsalı 2 dəfə artıb

Azərbaycanda "yaşıl enerji" istehsalı 2024-cü ilin birinci yarısında ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə artaraq rekord səviyyəyə yüsəlib. Ötən ilin bu dövründə bərpa olunan enerji istehsalı 1 milyon kVt.st təşkil edibsə, artıq bu rəqəm 2 milyon kVt·stı ötüb. "Yaşıl enerji"nin payında Günəş enerjisi istehsalı daha çox artıb, bu sahədə istehsalı 9 dəfə böyüyərək 32,3 mln. kVt·st-dan 286,6 mln. kVt·st-a yüksəlib. Digər enerjinin isə 1581,1 mln. kVt·st SES-lərin, 135 mln. kVt·st Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun payına düşüb. Beləliklə, "yaşıl enerji" mənbələri üzrə elektrik istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1 milyon kVt·st artıb.

Cari ilin birinci yarısında ölkə üzrə elektrik enerjisinin istehsalı 13,5 milyon kVt·st təşkil edib ki, ümumi istehsalda "yaşıl enerji"nin xüsusi çəkisi 15,5 faizə bərabərdir. Bu, son bir ildə bərpa olunan enerjinin payının 8 faizə yaxın artımı deməkdir. Bu statistika artıq ölkəmizdə bərpa olunan mənbələrdən enerji istehsalının artırılması istiqamətində yürüdülən siyasətin öz mühüm bəhrəsini verdiyini təsdiqləyir.

Qeyd edək ki, Azərbaycanın bərpa olunan enerji mənbələri üzrə potensialı 27000 Mvt dəyərləndirilir. Bunun 23000 Mvt-ı günəş, 3000 Mvt-I isə külək enerjisinin payına düşür. Günəş enerjisi üzrə, demək olar, bütün ölkə ərazisində istehsalın təşkili mümkündür. Külək enerjisi



üçün isə Bakı şəhəri, Abşeron və Xızı rayonları daha əlverişli hesab olunurlar. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) 2024-cü il üzrə hesabatında da qeyd olunur ki, Azərbaycan 2014-2023-cü illər ərzində bərpa olunan enerji ehtiyatlarını 567 meqavat artıraraq 1688 meqavata çatdırıb. Xüsusilə də hidroenerji ehtiyatlarının istehsalında böyük istehsal göstəriciləri qeydə alınıb, 2023-cü ildə hidroenergetika gücü 2014-cü illə müqayisədə 224 meqavat artaraq 1302 meqavata çatdırılıb. Həmin dövr ərzində külək enerjisinin gücü 2014-cü ildə mövcud olan 3 meqavatdan 67 meqavata, Günəş enerjisi isə 2 meqavatdan 282 meqavata yüksəlib. Bərpa olunan enerji mənbələrinin strukturunda su elektrik stansiyalarının payı isə 15,2 faizdən 20,3 faizə qədər artıbdır.

Digər enerji agentliklərinin qiymətləndirmələrinə əsasən, Azərbaycanda "yaşıl enerji" mənbələrinin potensialı quruda 135 QVt, dənizdə 157 QVt proqnozlaşdırılır. Dövlət başçısının vurğuladığı kimi bərpa olunan enerji mənbələrinin ən zəngin ünvanlarından biri azad olunmuş Qarabağ və Şərqi Zəngəzur bölgəsidir. Bu bölgədə su elektrik enerjisi baxımından nəhəng potensiala malikdir. Ortamüddətli inkişaf konsepsiyasına əsasən, bu ərazilər Yaşıl Enerji Zonası elan edilib və Yaponiyanın TEPSCO şirkəti müxtəlif ssenarilər tətbiq edilməklə ərazilərin enerji tələbatı modellərı hazırlanıb. Həmin strateji yanaşmaya əsasən, Yaşıl Enerji Zonasında enerji istehsalı üçün bir neçə mənbə müəyyən edilib. Mövcud dəyərləndirmələrə əsasən, Qarabağ və Şərqi-Zəngəzurda hidroenerji, külək və günəş enerjisi, termal su mənbələrinin həcmi ölkə üzrə resursların təxminən 30-40 faizini təşkil edir. Həmin iqtisadi rayonlarda enerji gücünün həcmləri 7200 MVt-dan artıq qiymətləndirilir. Təkcə, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır. Hidroenerji ehtiyatlarına görə Tərtərçay, Həkəri çayı və bu çayların qolları əsas resurs mənbələri hesab olunur. İndiyə qədər



bu ərazilərdə 10 ədəd kiçik su elektrik stansiyası inşa edilərək istifadəyə verilib, digər hidrogen infrastrukturlarının yaradılması işləri davam etdirilir. Ümumilikdə, 2 il ərzində Qarabağ və Şərqi Zəngəzurda 12 yerdə ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal edəcək su elektrik stansiyalarının tikintisinin başa çatdırılması nəzərdə tutulub. Bu isə bu bölgədə bərpa olunan təmiz enerjinin gücünün 1 QVt-ı ötməsinə səbəb olacaq.

Respublikamızın digər bölgələrində də Günəş və külək enerjisi ehtiyatlarının həcmi ümidvericidir. Quruda külək və Günəş enerjisi üzrə resursların həcminin təxminən 40 QVt olduğu ehtimal edilir. Xəzər dənizində qiymətləndirilən 157 QVt gücündə külək və Günəş enerjisinin Azərbaycana aid payı isə bu ehtiyatların ən azı 30 faizinə bərabərdir.

Beləliklə, həmin resursların istehsalı və nəqli üçün ölkəmizin maliyyə imkanları ilə yanaşı, xarici sərmayələrə ehtiyac vardır ki, bu məqsədlə dünyanın nüfuzlu şirkətləri ilə bərpa olunan enerji istehsalına dair sazişlər imzalanıb. Son 2 ildə "Masdar", "ACWA Power", "BP", "Fortescue Future Industries", "China Gezhouba Group","Total Energies", "Nobel Energy", "Czech Engineering", "Baltech" və digər şirkətlərlə imzalanmış müqavilələrə əsasən, "yaşlı enerji" ilə bağlı əməkdaşlığa başlanılıb. Bu əməkdaşlıq sazişlərinin icrası çərçivəsində inşa olunan bərpa olunan enerjinin illik istehsalı yaxın 2 ildə 2 QVt-a, 5-6 il ərzində isə 4-5 QVt-a çatmış olacaq.

Əldə edilən "yaşıl enerji"nin böyük bir hissəsi daxili ehtiyacların ödənilməsinə yönəldildikdən sonra, qalan hissəsi xaricə ixrac olunacaq. Bu məqsədlə hazırda "Xəzər-Qara dəniz-Avropa" "yaşıl dəhliz"i yaradılır.

**E.CƏFƏRLİ**

# Dünya post-Bayden dövrünə “hazırlaşır”...

## Hazırkı ABŞ iqtidarının şansları yüksək dəyərləndirilmir

Dünyanın diqqətlə izlədiyi, yaxın gələcək üçün siyasi proseslərin əsas lokomotivi sayılacaq ABŞ-dakı prezident seçkilərinə dörd ay qalmış proses yeni inkişaf istiqaməti qazanıb. Bir neçə gün Pensilvaniyada Respublikaçılar Partiyasının prezidentliyə namizədi Donald Trampa edilmiş uğursuz sui-qəsd cəhdi seçki marafonuna mühüm təsirləri ilə yadda qalıb. Siyasi ekspertlərin iddiasına görə, bu uğursuz sui-qəsd cəhdi Trampın şansını yüksək dərəcədə artırıb - paralel olaraq, Demokratlar partiyası bu “güllə”dən daha çox ziyan çəkiblər.

Bu mənada, Qərbin aparıcı nəşrləri və siyasi analitikləri seçkiyə 4 ay qalmış artıq post-Bayden dövrünü təhlil etməyə başlayıblar. Aparılan təhlillərdə isə bir neçə məqam diqqət çəkir...

### Siyasi kursda yeni ştrixlər....

Xüsusilə, Baydenin xarici siyasət kursunun ana xəttini təşkil edən qlobal yanaşmalardan fərqli olaraq mühafizəkar, başqa sözlə, ABŞ-ın milli maraqları müstəvisində yanaşma sərgiləyən Trampın atacağı addımların istiqaməti bir sıra komponentlər üzrə qruplaşdırılır:

- Ukrayna müharibəsinə baxış bucağı - yeni komandanın yanaşması birmənalı olaraq Bayden administrasiyası ilə üst-üstə düşmür;
- Avropaya baxış bucağı - “köhnə qitə” ilə münasibətlər NATO prizmasından çıxarılaraq çevik iqtisadi-ticari münasibətlər kontekstinə transfer edilir;
- Rusiyaya münasibət - Bayden administrasiyasının birmənalı qəbul etməmə siyasəti korrektə edilir və məsələlərin daha çox masa arxasında dialoq vasitəsilə həllinə çalışılır;
- Uzaq Şərq siyasəti - müttəfiqliklə yanaşı, fikirləri uzlaşmayan dövlətlərlə balansın qorunması (diqqətə alınmalıdır ki, birinci dönəm prezidentliyi dövründə Tramp bir neçə dəfə KXDR lideri ilə belə görüşmüşdü).



Beləliklə, proqnozlaşdırılan yeni dövr üçün xarici siyasət kursunda köklü dəyişikliklər gözləndiyi halda, əsas hədəf kimi Qərb koalisiyasının anti-Rusiya əhval ruhiyyəsini tənzimləməkdir. Bəlli olduğu və özünün də dəfələrlə açıqladığı kimi Trampın seçki proqramında yeni müharibə və ya Ukrayna cəbhəsində qəti yardımlaşma kimi bəndlər yer almır. Əksinə, Tramp üçün rəqabət hədəfi Rusiya deyil.

### Paralel yanaşma, ortaq davranış...

Digər maraqlı məqam isə ABŞ ilə paralel olaraq Aİ-də də antimüharibə komandasının “iqtidara” gəlişidir. Bəlli olduğu kimi, Aİ-nin hazırkı sədrliyini həyata keçirən Macarıstan və bu ölkənin baş naziri Viktor Orban çoxgedişli sülh kombinasiyası üzərində işləyir. Onun Aİ sədrliyinin icrasının ikinci günü Kiyevi ziyarət etməsi, ardından isə Moskva və Pekinə səfər etməsi göstərir ki, Ukrayna müharibəsinə baxış bucağı “köhnə qitə”də də dəyişməyə doğru yol alıb. Ən azından İttifaq çərçivəsində Macarıstanın bəzi ölkələr tərəfindən dəstəklənməsi həmin dövlətlərin də “kollektiv Qərb düşüncəsi” adı altında fərqli siyasi xətlərin icrasına yönləndirilməsindən narazı olduqlarını göstərir. Beləliklə, üst-üstə düşən maraqlar və uzlaşan mövqelər proqnozlaşdırılan situasiyanın yaranma ehtimalını gücləndirir - siyasi analitiklərin düşüncəsinə görə, paralel olaraq Aİ-də Orbanın, ABŞ-da isə Trampın sülhə yönəlik mövqeləri Ukrayna cəbhəsində silahların susmasını şərtləndirən amil kimi çıxış edəcək.

Hər iki liderin ortaya qoyduğu arqumentlər anlaşılan və kifayət qədər əsaslandırılmış səviyyədədir:

- Macarıstan müharibənin davam etməsi halında Avropada yaranacaq sosial-iqtisadi



böhrandan, enerji təhlükəsizliyinin təhdid altında düşmə ehtimalından, ən əsası isə, Avropanın əsas xammal bazasından məhrum olmasından xilas olmaq, milli maraqları təhlükə qarşısına qoymaq kimi ekstremal addımlardan çəkinməyə çağırışlar edir;

- Trampın respublikaçılar üçün vahid namizəd statusu qazanmasına əsas səbəb kimi, onun Ukraynaya yardım məsələsindəki fərqli düşüncəsi göstərilir. Bəlli olduğu kimi, bu ilin dekabrında Ukraynaya milyardlarla dollarlıq yardım məhz respublikaçı konqresmenlər tərəfindən bloklanmışdı. İndiki halda məsələni kökündən həll etməkdə israrlı görünən “mühafizəkar qanad” seçicilərin diqqətini bu tezisə yönəldərək qələbəyə ümid edir.

### Baydenin uğursuz addımları...

Beləliklə, artıq nəinki yalnız ABŞ-da, hətta Avropada belə post-Bayden - Tramp dönəminə ciddi hazırlıq prosesi başlayıb. Bir məsələni də diqqətdən qaçırmaq olmaz ki, indiki fərqli situasiyanın yaranmasında Baydenin “xidmətləri” böyükdür. “Demokratiya sammiti” adı altında yeni siyasi nizamın formalaşdırılması cəhdləri və ortaya çıxan uğursuzluqlar, səhv seçimlər və təsiretmə mexanizmlərinin seçilməsi, ən əsası Rusiyaya qarşı mübarizədəki səhv taktika - xüsusilə kompramisin istisna edilməsi, Orta Şərqdə ABŞ-ın nüfuzunun düşməsi, Mərkəzi Asiyaya Əfqanıstanın timsalında nəzarət funksiyasının itirilməsi Ağ Evə artıq 4 ildir ki, başçılıq edən Bayden haqqında ABŞ auditoriyalarında müsbət imic formalaşdırmayıb. Xüsusilə, Konqresin xarici yardımların ayrılması məsələsindəki fərqli mövqe göstərməsi Baydenin nüfuzuna böyük zərbə vurdu. ABŞ prezidenti Co Bayden hətta 2023-cü ilin ən uğursuz siyasətçisi belə elan edilmişdi. Qeyd olunurdu ki, amerikalıların təkcə Baydenin yaşı və vitse-prezident olduğu zaman korrupsiyada əli olması ilə bağlı deyil, həm də Yaxın Şərq münaqişəsində İsraillə dəstəyi ilə əlaqədar ciddi sualları yaranıb.

**P.İSMAYILOV**

# Aİ və ABŞ-dan fərqli olaraq...

## NATO Gürcüstanla əlaqələri bitirmək istəmir

Gürcüstanda “Xarici təsirin şəffaflığı haqqında” qanunun qəbul olunmasından sonra rəsmi Tbilisi ilə Qərb ölkələri və təsisatları arasında münasibətlər xeyli dərəcədə soyuyub. ABŞ və Avropa İttifaqı sözügedən qanunun demokratiyaya zidd hesab edir. Bildirilir ki, sözügedən qanun Gürcüstanın Avroatlantik məkana inteqrasiya prosesinə ciddi zərbə vuracaq. Lakin Gürcüstan hökuməti prinsipial mövqeyindən geri çəkilmir və milli maraqlar baxımından həmin qanunu vacib hesab edir. Hətta Prezident Zurabaşvilinin sənədə veto qoyması da hökumətin və parlamentin mövqeyinə əngəl ola bilməyib. Belə bir şəraitdə ABŞ və Avropa İttifaqı Gürcüstan hökuməti ilə əməkdaşlığa yenidən baxılacağı və sanksiyaların tətbiqi ilə hədələyib. Artıq Avropa İttifaqı Gürcüstanın təşkilata üzvlük məsələsi ilə bağlı danışıqları dayandırıb. Eləcə də Tbilisiyə bəzi maliyyə yardımlarının kəsildiyi də elan edilib.



ABŞ da Gürcüstana qarşı “cəza” tədbirlərinə başlanıb. Hələ bir müddət öncə Dövlət Departamentinin mətbuat katibi Metyu Miller Birləşmiş Ştatların Gürcüstanın hakim “Gürcü Arzusu-Demokratik Gürcüstan” Partiyasının rəhbər şəxslərinə və onların ailə üzvlərinə, eləcə də bəzi şəxslərə viza sanksiyaları tətbiq etdiyini açıqlamışdı. Bildirilmişdi ki, bu, viza məhdudiyyətlərinin ilk paketidir və buraya Gürcüstanın hakim partiyasının üzvləri, deputatları, hüquq-mühafizə orqanlarının əməkdaşları və fiziki şəxslər daxildir: “Biz ümid edirik ki, Gürcüstan liderləri öz hərəkətlərini yenidən nəzərdən keçirəcək və ölkələrinin uzun müddətdir bəyan etdiyi demokratik və Avro-Atlantik istəklərinə doğru irəliləmək üçün addımlar atacaqlar. Lakin bunu etməsələr, Birləşmiş Ştatlar əlavə tədbirlər görməyə hazırdır”. Bugünlərdə isə ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsi Gürcüstana qarşı “MEGOBARI aktı”nı qəbul edib. Sənəddə Gürcüstanda demokratik geriləmənin olduğu, bu səbəbdən Gürcüstan hökumətinin fəaliyyətinə və onun Rusiya ilə, eləcə də “digər avtoritar rejimlərlə” əlaqələrinə nəzarətin gücləndirilməsi çağırışı edilib.

Maraqlıdır ki, ABŞ və Avropa İttifaqının belə bir mövqe sərgilədiyi halda, NATO Gürcüstana bağlı müsbət yanaşma ifadə edib. Belə ki, Alyansın Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina özünün sosial şəbəkə hesabında NATO-nun Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini yazıb. “Biz Gürcüstan hökumətini demokratik institutların gücləndirilməsi və gürcü xalqının Avro-Atlantik məkana inteqrasiyası istiqamətində islahatları sürətləndirməyə çağırırıq. NATO Gürcüstanla uzunmüddətli tərəfdaşlığa sadiqdir”, - deyə Kolomina bildirib.

Maraqlıdır, ABŞ və Avropa İttifaqının Gürcüstana təzyiq və təhdidlərinə rəğmən NATO rəsmisinin bu pozitiv açıqlaması hansı anlama gəlir? NATO-nun hərbi təşkilat olduğunu nəzərə alsaq, burada Qərbin Cənubi Qafqaz regionunda hərbi cəhətdən yerləşməsinə çalışdığını görmək mümkündür. Məlumdur ki, Qərb uzun müddətdir bu bölgədə də möhkəmlənmək istəyir. NATO-nun indiyədək Gürcüstanla sıx tərəfdaşlıq mövqeyində olması bunu təsdiqləyir. Lakin son zamanlar Gürcüstanın indiki hökuməti ilə Qərb dairələri arasında yaranmış soyuqluq Tbilisiyə qarşı alternativ axtarışına da səbəb olub.



Alternativ isə Ermənistanın qərbyönümlü Paşinyan hakimiyyətidir. KTMT üzvü olan İrəvanın oriyentasiyasını dəyişərək Qərbə üz tutması, Fransa tərəfindən silahlandırılması bunun göstəricisidir. Üstəlik, bugünlərdə ABŞ və Ermənistanın birgə hərbi təlim keçirməyə başlaması da bu baxımdan, diqqəti cəlb edir. Belə ki, iyulun 15-dən Ermənistanda “Eagle Partner 2024” kod adlı ABŞ-Ermənistan birgə təlimləri başlayıb. Təlimlər 9 gün çəkəcək. Rəsmi məlumata görə, təlimlərin məqsədi beynəlxalq sülhməramlı missiyalarda iştirak edən bölmələr arasında koordinasiyanın səviyyəsinin yüksəldilməsi, idarəetmə və kommunikasiya sahəsində təcrübə mübadiləsi və Ermənistan hərbçilərinin döyüş hazırlığının artırılmasıdır. Erməni hərbi ekspert Leonid Nersisyan hesab edir ki, Ermənistanda keçirilən birgə hərbi təlimlər yalnız başlanğıcdır: “Ən əsası odur ki, ABŞ əvvəllər Ermənistan ərazisində hərbi təlimlər keçirməyib. Bu, çox ciddi addımdır”. Onun sözlərinə görə, hazırda Ermənistan ordusunun daha ciddi hərbi təlimlərə, məsələn, quru qoşunlarının təlimlərinə ehtiyacı var: “Söhbət təkcə hərbi təlimlər və ABŞ-la hərbi sahədə əməkdaşlıqdan getmir. Məsələn, artıq Amerika ordusunun nümayəndəsinin Ermənistanın Müdafiə Nazirliyində işləməsi ilə bağlı qərar var ki, bunu da çox mühüm sayıram”.

Göründüyü kimi, NATO ölkələrinin hərbçilərinin Ermənistanda kök salması region üçün müsbət heç nə vəd etmir. Onlar regionu diqqətdən kənarda qoymamaq üçün Gürcüstana qarşı da loyal münasibət sərgiləyirlər. Qərbin Ermənistanda hərbi mövcudluğu ilə bağlı layihəsi isə bütövlükdə, Cənubi Qafqaz regionunda gərginliyin artmasına xidmət edir.

**N.BAYRAMLI**

# Nüvə danışıqları bərpa olunacaqmı?

## İran bu prosesə hazır olduğunu bəyan edib

İran İslam Respublikasının Qərbin ağır sanksiyalarına məruz qalması yeni məsələ deyil. Əsasən, ABŞ tərəfindən reallaşdırılan bu sanksiyalar müxtəlif səbəblərlə əlaqələndirilib. Vaşinqton İranın nüvə proqramını qlobal təhlükəsizliyə təhdid kimi dəyərləndirir. Rəsmi Tehran isə proqramın reallaşdırılmasının onun üçün hədəf olduğunu bildirir. Nüvə proqramına görə tətbiq olunan sanksiyalar əsas etibarı ilə qonşu dövlətin neft ixracının məhdudlaşdırılmasını əhatə edir.

Xatırladaq ki, İran və altılıq (ABŞ, Fransa, Böyük Britaniya, Çin, Rusiya Federasiyası və Almaniya) hələ 2015-ci ilin 14 iyulunda Birgə Hərtərəfli Fəaliyyət Planı imzalayıblar. Və bununla da Tehran müstəsna olaraq dinc nüvə proqramını həyata keçirmək, 15 il ərzində 300 kq-dan artıq olmayan az zənginləşdirilmiş urana sahib olmaq imkanını, yüksək zənginləşdirilmiş uran və silah dərəcəli plutonium istehsal etməmək, nüvə sentrifuqalarının sayını 19 mindən 6,1 minə endirmək, Fordodakı zənginləşdirmə zavodunu texnologiya mərkəzinə çevirmək, MAQATE müfəttişlərinə öz nüvə obyektlərinə baş çəkməyə və Arakdakı reaktordan yalnız dinc məqsədlər üçün istifadə etməyə icazə vermək öhdəliklərini öz üzərinə götürdü.

Altılıq isə qarşılığında tətbiq edilən sanksiyaları aradan qaldırmağa razılıq verdi. Lakin ABŞ-da Donald Tramp prezident olarkən əldə olunmuş ən yüksək nailiyyətlərdən biri hesab olunan bu razılaşmanı “dəhşətli müqavilə” adlandırıb. Nəticədə 2018-ci il may ayının 8-də haqqında danışılan müqaviləni “yalan üzərində qurulan” adlandırıb və sazişdən çıxdığını rəsmi şəkildə bəyan edib. O, həmin il aprelin 30-da İranın nüvə silahı hazırlamaq üzrə gizli proqramının mövcudluğuna dair sübutları dərc edən İsrailin məlumatlarını rəhbər tuturdu. İsrailin o vaxtkı baş naziri Benyamin Netanyahu İsrail kəşfiyyatının keçirdiyi əməliyyat nəticəsində məlum olduğunu iddia etmişdi.

O vaxtdan etibarən nüvə danışıqlarının bərpası üçün cəhdlər olsa da, uğursuzluğa uğrayıb. Bugünlərdə isə İranın xarici işlər naziri vəzifəsini icra edən Əli Baqeri rəsmi Tehranın ABŞ-la nüvə danışıqlarını bərpa etməyə hazır olduğunu açıqlayıb. Baqeri bununla bağlı İranın hər hansı şərtini irəli sürməyib.



Bəs bu danışıqların bərpası nə dərəcədə realdır? Məsələ ilə bağlı qəzetimizə açıqlama verən politoloq Ramiz Alıyev bildirib ki, İranda yeni seçilən prezidentin islahatçı olması ABŞ-la danışıqların bərpasına müsbət təsir göstərə bilər. Çünki yeni dövlət başçısı Qərblə münasibətlərin normallaşdırılması istiqamətində pozitiv açıqlamalar verib. Onun sözlərinə görə, ABŞ uranın zənginləşdirilməsi məsələsində İrana qarşı əvvəlki sərt mövqeyində müəyyən yumşalmalara getməyə məcburdur: “Bu, yeni regional və qlobal situasiya, xüsusilə də Ukrayna böhranına görə Rusiyaya qarşı tətbiq edilən sanksiyalarla əlaqədardır. Hər halda, proseslərin gedişatını zaman göstərəcək”.

Politoloq xatırladıb ki, Birləşmiş Ştatlar müxtəlif iddialar səsləndirərək Tehranın nüvə proqramı üzrə Birgə Hərtərəfli Fəaliyyət Planının razılaşdırılması nəticəsində dayandırılmış genişmiqyaslı sanksiyaları bərpa edib. Təbii ki, ixracdan gələn neft gəlirlərinin azalması İran iqtisadiyyatına özünün mənfi təsirlərini göstərir. Vaşinqton iddia edir ki, İran üzərinə düşən öhdəlikləri yerinə yetirəcəyi təqdirdə bəzi sanksiyalar ləğv edilə bilər. “Rəsmi Tehran üzərinə düşən öhdəlikləri yerinə yetirməyə hazır olduğunu bəyan edib. Lakin ilk növbədə sanksiyaların aradan qaldırılmasını tələb edirdi. Arqument bundan ibarətdir ki, 2015-ci ildə İran ilə ABŞ və Avropa dövlətləri arasında “İranın nüvə proqramının məhdudlaşdırılması” haqqındakı müqavilədən ilk olaraq ABŞ birtərəfli qaydada çıxaraq sanksiyalar tətbiq edib. İran müqavilədən çıxmayıb. Bu səbəbdən də ilk addımı rəsmi Vaşinqton atmalıdır. İranın yeni seçilmiş prezidenti islahatçı və Qərb ölkələri ilə münasibətlərin bərpasına maraqlı olan şəxs kimi təqdim olunur. Lakin məsələ ondadır ki, İrana münasibət ABŞ-da keçiriləcək prezident seçkilərindən də asılı ola bilər. Trampın İrana qarşı kəskin münasibəti hamıya məlumdur. Əgər o, yenidən dövlət başçısı seçilərsə, münasibətlərdə hər hansı dəyişikliklərin olması real görünmür. Ən azı keçmiş təcrübə bunu deməyə əsas verir. Yeni Prezident Məsud Pezeşkian Trampla anlaşa bilsə, o zaman ABŞ prosesə qayıda bilər”,- deyə R.Alıyev vurğulayıb.

Yeri gəlmişkən, qeyd edək ki, ötən ay ABŞ İran neftinin daşınmasına görə 3 şirkət və 11 gəmiyə qarşı yeni sanksiya tətbiq edib. ABŞ Maliyyə Nazirliyinin saytında verilən məlumata görə, ABŞ İran neftinin və ya neft-kimya məhsullarının daşınmasında iştirak edən Birləşmiş Ərəb Əmirliklərinin üç gəmi şirkətinə, eləcə də onlarla əlaqəli 11 gəmiyə qarşı sanksiyalar tətbiq edib. ABŞ dövlət katibi Antoni Blinken sanksiyaların İranın “davam edən nüvə eskalasiyasına” cavab olaraq hazırlandığını bildirib: “İranın davam edən nüvə eskalasiyasına və AEBA ilə əməkdaşlıq etməməsinə cavab olaraq bəzi İranın neft və neft-kimya ticarəti ilə məşğul olan qurumlara sanksiyalar tətbiq edirik. Biz İranın nüvə silahı yaratmasının qarşısını almaq üçün bütün mövcud vasitələrdən istifadə etməyə sadiqik”. Belə bir şəraitdə danışıqların bərpası mürəkkəb görünür. Hər halda, İranın yeni rəhbərliyi bu prosesin reallaşmasına maraqlıdır. Bu baxımdan, rəsmi Tehranın ilk addımı atacağı istisna deyil.

**Nardar BAYRAMLI**

# Azərbaycanda demokratik seçki mühiti mövcuddur

Ölkəmizdə keçiriləcək parlament seçkiləri ictimai-siyasi gündəmin əsas mövzularından biridir. Seçki günü yaxınlaşdıqca siyasi fəallıq da əhəmiyyətli dərəcədə artır. Bir sıra beynəlxalq təşkilatlar artıq sentyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkilərini müşahidə edəcəklərini bəyan ediblər. Təbii ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan, bütün sahələrdə olduğu kimi, demokratik prinsiplərə sədaqət, seçkilərin azad, şəffaf və ədalətli keçirilməsi istiqamətində siyasi iradə nümayiş etdirib. Ölkəmiz istər seçki qanunvericiliyinin təkmilləşdirilməsi, istərsə də prosesin şəffaf və bərabər prinsiplər əsasında inkişafı yolunda əsaslı addımlar atıb. Bu baxımdan, beynəlxalq qurumların qarşıdan gələn parlament seçkilərinə verdiyi önəm anlaşılandır.





**Vüqar İskəndərov: Seçkilərdə bütün siyasi partiyalar üçün bərabər imkanlar yaradılıb**

Hazırda parlament seçkiləri kampaniyası deputatlığa namizədlərin irəli sürülməsi mərhələsindədir. Bir çox siyasi partiyalar seçkilərdə iştirak etmək qərarı veriblər. Lakin bəzi siyasi təşkilatlar öz "ənənəsinə" bu dəfə də "sadiqlik" nümayiş etdirərək seçkilərdə iştirakdan imtina edib. Xüsusilə AXCP-nin məqsədi bəllidir - öz siyasi acizliyini, gücsüzlüyünü və xalq tərəfindən dəstəklənmədiyini pərdələmək üçün onların məqsədi seçkilərə bəribaşdan kölgə salmaqdır. Amma onların bu istəyi heç bir nəticə verməyəcək. Məsələ ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Vüqar İskəndərov bildirib ki, seçki bir dövlətin və xalqın gələcəyi üçün mühüm əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, cəmiyyətdə demokratik mühitin, şəffaf və ədalətli seçki şəraitinin yaradılması birbaşa dövlətin siyasi iradəsinin göstəricisi kimi dəyərləndirilir. Onun sözlərinə görə, ötən dövrdə seçki qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar Seçki Məcəlləsini daha mükəmməl formaya gətirib. Digər tərəfdən, hakimiyyət atdığı addımlar, verdiyi qərarlarla Azərbaycanda ədalətli seçki keçirilməsində maraqlı olduğunu hər zaman nümayiş etdirir. Çünki demokratik seçki ölkədə sabit vətəndaş cəmiyyətinin inkişafının əsas təməl prinsipi sayılır.

Komitə üzvü qeyd edib ki, Azərbaycan dövləti hər zaman beynəlxalq təşkilatlarla seçki ilə bağlı əməkdaşlığa böyük önəm verib. Seçki qanunvericiliyinin yaradılması prosesində müvafiq təşkilatlarla səmərəli əməkdaşlıq baş tutub. Bu səbəbdəndir ki, Seçki Məcəlləsi seçkilərin keçirilməsi üçün beynəlxalq meyarları və ən yaxşı təcrübələri özündə cəmləşdirir. Ötən illərdə keçirilən seçkilərin beynəlxalq standartlara cavab verməsi də bunu təsdiqləyir. "Bundan başqa, hazırda Azərbaycan cəmiyyətində seçkilərdə iştirak edən siyasi qüvvələrə bərabər şəraitin yaradılmasının özü demokratik seçki mühitinin inkişafının göstəricilərindən biridir. Siyasi baxışlarından asılı olmayaraq bütün qüvvələrə təbliğat prosesində bərabər şəraitin yaradılması seçicilərin azad seçim etməsində vacib rol oynayır. Azərbaycanda seçkiləri müşahidə edən beynəlxalq missiyalar da ölkəmizdə son prezident seçkilərinin bütün tərəflərə mübarizə aparmaq üçün bərabər şəraitin yaradıldığını öz rəylərində əks etdiriblər. Heç şübhə yoxdur ki, qarşıdan gələn parlament seçkilərində də belə olacaq",-deyən V.İskəndərovun fikrincə, "Siyasi partiyalar haqqında" yeni qanun da partiyaların seçki prosesində iştirakı üçün geniş imkanlar açır. Bu qanun müasir dövrün tələblərinə tam cavab verir və ölkədə fəaliyyət göstərən partiyaların mütləq əksəriyyəti tərəfindən dəstəklənir. Ona görə də, hazırkı seçkilərdə siyasi partiyalar yüksək fəallıqla iştirak edirlər. "Parlament seçkilərini boykot etmək qərarı verən müxalifət partiyalarına gəlincə, onların bu qərarının seçki prosesinə zərrə qədər də təsiri olmayacaq. AXCP kimi partiyalar yalnız xaricdən sifariş alır, Azərbaycanın əleyhinə fəaliyyət göstərən xarici qüvvələrin tapşırıqlarını yerinə yetirirlər. Yəqin ki, seçkilərdə iştirak etməmək barədə tapşırığı da onlardan alıblar. AXCP kimi partiyaların cəmiyyətdə heç bir dəstəyi yoxdur",-deyə millət vəkili vurğulayıb.

**Qorxmaz İbrahimli: Seçki qanunvericiliyi zaman-zaman təkmilləşdirilib**

"Azərbaycanda seçki kampaniyası Konstitusiyamıza uyğun olaraq qəbul edilmiş Seçki Məcəlləsinə uyğun aparılır. Qanunun verdiyi imkanlar demokratik seçki keçirmək üçün yetərlidir. Bu qanun beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının Venesiya Komissiyasının ekspertizasından keçirilib". Bu fikirləri isə Demokratik Seçki Mərkəzinin sədri Qorxmaz İbrahimli deyib. Onun sözlərinə görə, seçki qanunvericiliyinə əsasən ölkəmizdə seçkilər 100 faiz mojaritar qaydada keçirilir: "Ölkəmizdə siyasi partiyalar dairələr üzrə namizəd irəli sürsələr də, qanuna görə seçicilər partiyalara deyil, namizəd şəxslərə səs verirlər. Ancaq qanunla siyasi partiyaların öz namizədlərini dəstəkləməsinə, təbliğ etməsinə normal şərait yaradılıb".

Q.İbrahimli deyib ki, mövcud seçki qanunvericiliyi beynəlxalq təşkilatların ekspertizasından keçsə də, zaman-zaman təkmilləşdirilib: "Ölkəmiz müstəqilliyini qazandıqdan sonra demokratik inkişaf baxımından vacib addımlar atılıb. Bu baxımdan, zərurət olarsa, gələcəkdə seçki qanunvericiliyi yenə də təkmilləşdirilə bilər".

*Nardar BAYRAMLI*

# Aİ-nin Ceyms Vens "qorxusu"...

## Respublikaçıların yeni vitse-prezidentinin fərqli siyasi baxışları

Noyabr ayında ABŞ-da keçiriləcək prezident seçkilərində iştirak edəcək namizədlərdən biri dəqiqləşdi. Belə ki, iyulun 15-də Viskonsin ştatının Milouki şəhərində Respublikaçılar Partiyasının 43-cü Qurultayı işə başlayıb. Xatırladaq ki, Respublikaçılar Partiyası prezident və vitse-prezidentliyə namizədləri rəsmən irəli sürmək və təsdiqləmək üçün prezident seçkilərinə bir neçə ay qalmış dörd ildən bir öz Qurultayını keçirir. Bundan başqa, qurultayda partiyanın namizədinin proqramı da qəbul edilir. Nəzərə alsaq ki, ştatlar üzrə keçirilən praymerizdə Donald Tramp 2429 nümayəndədən 2268-nin dəstəyini qazandığı üçün onun namizədliyinin elan edilməsi gözlənilən idi. Beləliklə, Qurultayın ilk günündəcə Donald Tramp rəsmi olaraq prezidentliyə namizəd elan edilib. Namizədin belə asan müəyyənləşməsinin əsas səbəbi isə Trampın əvvəldən nümayəndələrin böyük əksəriyyətinin dəstəyini qazanması olub. Qurultayın əsas səs-küylü hadisələrindən biri isə Donald Trampın komandasının əsas simasının - vitse-prezidenti elan etməsi olub. Tramp Ohayodan olan 39 yaşlı senator, "qatı Trampçı" kimi tanınan Ceyms Devid Vensi özünün vitse-prezidenti kimi təqdim edib.

## Vensin "ən yaxşı variantı" - Ukrayna ərazilərinin bir hissəsini ruslara versin

Vens gənc olsa da, bioqrafiyası olduqca zəngindir. 1984-cü ilin avqustunda Midltaunda anadan olan Vens 2003-cü ildə məktəbi bitirərək Dəniz Piyadaları Korpusunda xidmət etməyə başlayır. İraq müharibəsi dövründə Korpusun ictimaiyyətlə əlaqələr işinə məsul olub. 2007-ci ildə xidmətini başa vuran Vens 2009-cu ildə Ohayo Universitetinə fəlsəfə ixtisası üzrə qəbul olub. 2013-cü ildə isə Yel Universitetinin hüquq fakültəsini bitirib. Bir sıra firmalarda vəkil kimi fəaliyyət göstərib. Siyasi karyerasının əvvəlində Trampa qarşı radikal mövqe tutan Ceyms Vens 2016-cı ildə ona qarşı kampaniyaların ən fəal iştirakçısı kimi tanınırdı. 2022-ci ildə isə Vensin Trampa münasibəti dəyişdi - ən qatı düşmənlər ən yaxın dosta çevrildilər. Ohayonun senator seçkilərində Trampın tam dəstəyini alan Vens praymerizlərdə 32 faiz səs qazanaraq rəqibi demokrat Tim Rayanı geridə qoydu.

Vensin Rusiya-Ukrayna müharibəsi ilə bağlı şəxsi baxışları isə fərqlidir - 2023-cü ildə Ukrayna prezidenti Zelenskinin ABŞ-a səfəri zamanı CNN-ə müsahibəsində Vens bildirmişdi ki, Şərqi Avropada davam edən müharibə səbəbindən daha da pisləşən ərzaq böhranı yaranıb: "Qərbi Avropada bir çox müttəfiq hökumətlərin istefası təhlükəsini formalaşdıran enerji böhranı yaranıb. Fikrimcə, Amerikanın maraqlarına uyğun olan ən yaxşı variant Ukraynanın öz ərazilərinin bir hissəsini ruslara verməsi və bu müharibəni bitirməli olmasıdır. Yüz minlərlə Şərqi avropalılar, günahsızlar bu münaqişədə həlak oldular. Can itkisini dayandırmaq bizim və onların maraqlarına uyğundur".

## Putinlə dialoq davam etməlidir...

Ceyms Vens ailədədir, üç uşağı var. Həyat yoldaşı Uşa Çilkursi Vens ilə Yel Universitetində tanış olub. Uşa Çilukuri Vens hindli miqrantların qızıdır və San Dieqoda (Kaliforniya) böyüyüb. Yel Universitetini bitirən Uşa Vens Böyük Britaniyada Kembric Universitetində magistr dərəcəsi alıb.

Hazırda Ceyms Vensi Amerikanın köhnə şöhrətini qaytarmaq istəyənlərin siyasi düşərgəsində ən görkəmli simalardan biri kimi təqdim edirlər. Senatda mühafizəkar gündəmin ardıcıl tərəfdarı kimi çıxış edən Vens Ukraynaya yardımın ən qatı əleyhdarlarından biri kimi tanınır. Bu ilin aprelində Vens "New York Times" qəzetində "Rəqəmlər Ukraynada birləşmir" başlıqlı köşə yazısı dərc etdirmiş və mövqeyini əsaslandırmışdı. "Ukrayna ilə bağlı problem riyaziyyatdır. Ukrayna öz daxilində ən amansız səfərbərlik siyasəti həyata keçirsə belə, yenə də daha çox əsgərə ehtiyacı yaranacaq. Ona ABŞ-ın təmin edə biləcəyindən daha çox avadanlıq lazımdır".

Vens iddia edirdi ki, Ukrayna sərt reallığı" qəbul etməli, müdafiə strategiyası qurmalı və mümkün qədər tez Rusiya ilə danışıqlara başlamalıdır. Amerika nəşri "The Hill" yazır ki, fevral ayında Münhen Təhlükəsizlik Konfransında Vens Trampın "Öncə Amerika" prinsipinə əsaslanan xarici siyasət doktrinasını dəstəkləmişdi. O bildirmişdi ki, Avropa öz təhlükəsizliyinə, xüsusən də silah istehsalı sahəsinə daha çox diqqət ayırmalıdır. Vensin fikrincə, ABŞ Asiya regionuna daha çox diqqət ayırmalı və Çini nəzərə almalıdır. O, həmçinin Rusiya prezidenti Vladimir Putinlə dialoqu davam etdirməyə çağırmışdı.



## Avropa İttifaqı narahatdır...

Noyabr seçkilərində Trampın prezident seçilməsi imkanlarını yüksək dəyərləndirən Qərb diplomatiyası Vensin vitse-prezident postunu tutmasından artıq narahatlıq keçirməyə başlayıb. "Politico" nəşri Avropa İttifaqının adının açıqlanmasını istəməyən yüksək vəzifəli bir məmurunun fikirlərini çap edib - bildirilib ki, Ohayo ştatından olan senator Ceyms Devid Vensin Respublikaçılar Partiyasının ABŞ vitse-prezidentliyinə namizəd seçilməsi Ukrayna üçün fəlakətdir. "Politico" qəzeti qeyd edir ki, ABŞ-ın sabiq prezidenti Donald Trampın mümkün qələbəsi artıq Avropada çaxnaşma yaradıb və Vensin vitse-prezidentliyə namizəd kimi təsdiqlənməsi mümkün yeni administrasiyanın Ukraynanı dəstəkləmək öhdəliyi ilə bağlı əlavə suallar yaradıb. Aİ Vensin ardıcıl olaraq Vaşinqtonun Kiyevə silah tədarükünü dayandırmağı və Ukraynadakı münaqişəni tez bir zamanda həll etmə çağırışlarını diqqətlə izləyir. Xüsusilə, onun "The New York Times" qəzetinə müsahibəsində Ukraynaya neytral statusun verilməli, onun sərhədlərinin indiki vəziyyətdə dondurulmasının gərəkdiyini deməsi rəngləri daha da tündləşdirir...

*S.İSMAYILZADƏ*

# ABŞ məhkəməsinin Bob Menendez haqqında qərarı...

## Ermənipərəst senatoru 20 ilədək həbs gözləyir



Nyu-York məhkəməsi amerikalı ermənipərəst senator Bob Menendezlə bağlı qərar çıxarıb. Məhkəmə Nyu-Cersidən olan Demokratlar Partiyasının təmsilçisi, ABŞ Senatının Xarici Əlaqələr Komitəsinə rəhbərlik etmiş Menendezi rüşvətxorluq, pul fırıldaqçılığı, ədalət mühakiməsinə mane olmaq və xarici agent kimi fəaliyyət göstərmək daxil olmaqla, ümumilikdə, 16 maddə üzrə təqsirli bilib.

Prokurorlar sübut ediblər ki, senator Menendez Misirin hərbi maraqlarını önə çıxarmaq, cinayət təqiblərinə müdaxilə etmək və Qətər rəsmilərinin investisiyalarının təhlükəsizliyini təmin etmək üçün səlahiyyətlərindən sui-istifadə etməyə çalışıb. İddialara əsasən, Menendez və həyat yoldaşı bunun müqabilində qızıl külçələr, yüz minlərlə dollar nağd pul, avtomobil və digər formada rüşvət alıb. Bu işdə senatorun həyat yoldaşı erməni əsilli Nadine Menendez də ittiham olunub, lakin onun məhkəməsi xəstəliyi səbəbindən hakim tərəfindən qeyri-müəyyən müddətə təxirə salınıb. Bu cinayətlərə görə ermənipərəst senatoru 20 ilədək həbs cəzası gözləyir, lakin o, apelyasiya şikayəti də verə bilər. Menendezlə yanaşı, Nyu-Cersi ştatından olan iş adamları Vael Hana və Fred Daybes də onlara qarşı irəli sürülən bütün ittihamlar üzrə təqsirli biliniblər.

2006-cı ildən Nyu-Cersi ştatının senatoru olan Bob Menendez Konqresdə fəaliyyət göstərdiyi vaxtda federal agent kimi müttəhim kürsüsünə çıxarılan ilk senatordur. Bu, Menendezin Senatın üzvü olduğu təxminən 20 il ərzində onun korrupsiya ittihamı ilə üzləşdiyi ikinci federal cinayət məhkəməsi prosesidir. Əvvəlki məhkəmə istintaqı münsiflər heyətinin hökm çıxara bilməməsi səbəbindən yanlış araşdırma ilə nəticələnib.

Senator bu ilin iyununda Nyu-Cersi ştatından müstəqil namizəd kimi seçkilərdə iştirak etmək barədə də müraciət edib. Xatırladaq ki, ermənipərəst senator Bob Menendezin məhkəmə prosesi may ayından başlayıb. Dairə hakimi Sidney Stein məhkəmənin iyunun sonu və ya iyulun əvvəlinə kimi davam edəcəyini bildirmişdi. Menendezə qarşı cinayət işi isə Nyu-Yorkda Manhetten Federal Məhkəməsi tərəfindən ötən ilin sentyabrında başladılmışdı. Hələ ötən il "USA Today" nəşri Bob Menendez və onun həyat yoldaşı Nadine Arslanyana qarşı irəli sürülmüş ittihamlarla bağlı məqalə dərc etmişdi. Məqalədə ABŞ-ın federal prokurorlarının verdiyi məlumata əsasən bildirilirdi ki, cinayət xarakterli sövdələşmə Menendezin Misir rəsmiləri ilə görüşləri və şam yeməyi zamanı əldə edilib. Belə ki, Misirin hökumətini təmsil edən rəsmilər ABŞ-ın silah satışı və maliyyələşdirilməyə yardım etməsini istəyiblər. Menendez və həmin vaxt hələ onun sevgilisi olan Nadine Arslanyan hər iki məsələdə yardım edə biləcəklərini vəd ediblər. Bunun müqabilində Nyu-Cersidən olan vasitəçi - Vael "Uill" Hana adlı misirəsilli sahibkar Arslanyana, guya kiçik və ya onun iştirak etməsi tələb olunmayan iş vəd edib. Bu təklif, prokurorluğun cütlüyü və Hananı Nyu-Cersi ştatının baş senatorundan Misir hökumətinin aktiv aləti kimi istifadə etmək üçün sövdələşmələrə dair ittihamnamədə araşdırılan hekayənin bir hissəsidir.

Daha əvvəl onun evində axtarış aparılan zaman 480 min dollardan çox pul, dəyəri 100 min dollardan çox olan 13 qızıl külçə və yaxınlıqdakı bankın seyfindən 80 min dollara yaxın pul aşkar edilib. Senator bununla ikinci dəfədir rüşvət məsələsinə görə məhkəmə qarşısına çıxarılır. İlk dəfə o, 2017-ci ildə həkimlə bərabər rüşvət almada iştirak etdiyinə görə məhkəməlik olmuşdu. Keçən ilin payızında həbs olunduqdan sonra Menendez Senatın Xarici Əlaqələr Komitəsinin sədri vəzifəsindən kənarlaşdırılıb.

Bob Menedez həm də Azərbaycana qarşı çıxışları və ermənipərəst mövqeyi ilə tanınır. Yeri gəlmişkən, Menendezin başına gələn bütün "macəralar" məhz onun ikinci evliliyindən sonra erməni əsilli Nadine Arslanyanla "birləşəndən" sonra baş verib. "Arslanyan" soyadını Menendezə dəyişən Nadine Livan əsilli ermənidir. Bu evlilik Bob Menendezin yalnız şəxsi həyatını deyil, həm karyerasını, həm də bütövlükdə, düşüncələrini dəyişdi. Arslanyanla tanış olduqdan sonra rüşvətə, korrupsiyaya bulaşan, təmsil etdiyi dövlətin mənafeyinə zidd mövqe tutan, hətta rüşvət alaraq siyasi bəyanatlar verən Menendezin, ittihamlarda dövlət məmurlarının xarici qüvvələrin agenti kimi xidmət etməsi qadağasını açıq şəkildə pozduğu qeyd olunub. Bütün bunlar təsdiqləyir ki, ermənipərəst senatoru ciddi cəza gözləyir.

*N.BAYRAMLI*

# Uğurlu əməkdaşlıq modelimiz...

## Azərbaycan dövləti beynəlxalq aləmdə böyük nüfuza malikdir

Milli maraqlara söykənən xarici siyasət kursumuz nəticəsində bu gün Azərbaycan dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən ən etibarlı tərəfdaşlardan biri kimi qəbul olunur. Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən uğurlu xarici siyasət kursu ölkəmizə dünyanın müxtəlif dövlətləri və təşkilatları ilə həm sosial, həm hərbi, həm siyasi, həm də iqtisadi sahələrdə əməkdaşlıq əlaqələrini genişləndirməyə imkan verir. Bu isə nəticə etibarı ilə dövlətin beynəlxalq nüfuzunun artmasını şərtləndiri. Ölkəmiz üzvü olduğu beynəlxalq təşkilatların fəaliyyətində aktiv iştirak edir, üzərinə götürdüyü missiyanın öhdəsindən layiqli şəkildə gəlir. Təşkilatdaxili münasibətlərin daha da dərinləşməsinə, əlaqələrin və əməkdaşlığın inkişaf etdirilməsinə töhfələr verir. Həmçinin Azərbaycanın üzv olduğu və rəhbərlik etdiyi təşkilatların bir sıra mühüm tədbirləri məhz ölkəmizin paytaxtında keçirilir ki, bu da respublikamızın regional və qlobal müstəvidə aparıcı rolunun ən bariz göstəricilərindəndir.

Ölkəmiz beynəlxalq siyasi münasibətlər çərçivəsində həll olunan məsələlərdə fəal iştirak edir, həmçinin xüsusi nüfuza sahib olan beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük önəm verir. Bu gün müasir geosiyası reallıqda Cənubi Qafqaz lideri Azərbaycandır. Bunun da əsas meyarı uğurlu, xarici siyasət, iqtisadi inteqrasiya, siyasi sabitlikdir.

**Beynəlxalq arenada özünəməxsus yer...**

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən politoloq İlyas Hüseynov bildirib ki, İkinci Qarabağ müharibəsi fonunda Cənubi Qafqazda geosiyasi mənzərə kökündən dəyişib: “Azərbaycanın istər regional, dövlət istər dünya birliyinə inteqrasiyası çox mühüm məsələdir. Məlumdur ki, 44 günlük müharibədə qələbəyə qədər bu bir başqa istiqamət idi, indi artıq şanlı qələbəmizdən sonra inteqrasiya məsələsi daha da gündəmdədir. Çünki Azərbaycanı artıq qalib və paralel olaraq enerji təhlükəsizliyinin təminatçısı olan bir dövlət kimi qəbul edirlər. Azərbaycan dünyanın əksər dövlətləri ilə, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq təşkilatı, Türk Dövlətləri Təşkilatı, Avropa İttifaqı və başqa beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir. Bu gün Azərbaycan beynəlxalq arenada söz sahibidir. Türk Dövlətləri Təşkilatı çərçivəsində Türkdilli dövlətlərlə qarşılıqlı münasibətimizin möhkəmlənməsi, Prezidentimizin Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğızıstan kimi ölkələ-



rə işgüzar səfərləri və həmin dövlətlərin rəhbərlərinin Azərbaycana səfərləri, işğaldan azad olunmuş ərazilərdə müxtəlif infrastrukturlarının açılışında iştirak etməsi birliyimizin dünyaya uğurlu nümayişidir. Bu əlaqələr genişmiqyaslıdır və çoxşaxəli xarakter daşıyır. Məsələn, hərbi sahədə Türk ordusu modelində ordu quruculuğu işləri uğurla davam etdirilir”.

**Müstəqil daxili-xarici siyasət kursu ...**

İ.Hüseynov qeyd edib ki, son vaxtlar ölkəmiz enerji təhlükəsizliyi sahəsində Avropa üçün istinad ünvanına çevrilib: “Bu sahədə Serbiya, Ruminiya, Bolqarıstan, Macarıstan, Slovakiya və digər dövlətlərlə uğurlu əməkdaşlığımız qurulub. Gürcüstan, Ruminiya və Macarıstan hökumətləri arasında “Yaşıl Enerji” sahəsində starateji tərəfdaşlıq sazişi var. Məlumdur ki, bir sıra dövlətlər Ermənistandan vasitə kimi istifadə edərək Azərbaycanın beynəlxalq səviyyədə inkişafına mane olmağa çalışır. Lakin Azərbaycanın dönməz daxili və xarici siyasəti var. Bu siyasət müstəqildir. Ona görə də biz əlaqələrimizi öz prinsiplərimiz və milli maraqlarımız müstəvisində qururuq. Ən bariz nümunə kimi ölkəmizdə keçirilməsi nəzərdə tutulan COP29 da dövlətlərin, bir sıra beynəlxalq təşkilatların Azərbaycana gəlməsi çox mühüm əhəmiyyət kəsb edir. Təbii ki, inteqrasiya prosesində diaspora təşkilatlarının da rolu mütləq şəkildə nəzərə alınmalıdır”.

**TDT-nin inkişafına töhfə...**

Politoloqun sözlərinə görə, Azərbaycan Prezidenti hər zaman sübut edib ki sözü imzasıdır: “Bu gün Azərbaycan və Türkiyə arasındakı münasibətlər strateji müttəfiqlik səviyyəsinə, qardaşlıq bağlarına söykənir. Bu əlaqələr strateji xarici siyasət, hərbi müdafiə, sənaye, iqtisadiyyat və bir çox sahələri əhatə edir. Dövlətimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə Türk Dövlətləri Təşkilatının güclənməsi istiqamətində ardıcıl addımlar atır. Beləliklə də təşkilatın daha da güclənməsinə töhfə verir”.

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır

# İŞİD ilə bağlı xəbərdarlıq...

## Terror təşkilatı aktivləşir...

Bir müddət susqunluqdan sonra yenidən terror təhdidi yağdıran İŞİD aktuallaşmaqdadır. Bir zamanlar Yaxın Orta Şərqdə boy göstərən, bəzi xarici mərkəzlər tərəfindən Suriya və İraqda “qarşısıalınmaz güc” kimi xarakterizə olunan radikal terrorçu dəstə yeni terror hadisələri törətməklə gündəmə daşınır. Din pərdəsi altında terror fəaliyyəti ilə məşğul olan qruplaşma Yaxın Orta Şərqdə yaradılmasına çalışılan sabitliyi və inkişafı növbəti dəfə hədəfə alır.

ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) “X” sosial şəbəkəsindəki səhifəsində yaydığı məlumata görə, İŞİD terror təşkilatı hücumların sayını azı iki dəfə artırmağa, Yaxın Şərqdəki şərti “sükutundan” çıxmağa çalışır. Məlumatda deyilir ki, 2024-cü ilin yanvarından iyuna qədər təşkilatın silahlıları İraq və Suriyada 153 hücumun məsuliyyətini öz üzərinə götürüb. “İŞİD bu sürətlə 2023-cü ildəki hücumların ümumi sayını iki dəfədən çox artırmağa doğru gedir”, - komandanlıq bəyan edib.

**İŞİD: haradan haraya...**

İŞİD-in yaranma tarixinə qısa nəzər salmaq, bu terror təşkilatının 2004-cü ildə İraq müharibəsinin başlamasından qısa müddət sonra “Camaat əl-Tövhid vəl-Cihad” adı ilə qurulmasının şahidi olarıq. 2004-cü ilin oktyabrında Əl-Qaidəyə bağlılığını elan edərək “Tanzim Kaidat el-Cihad fi Bilad el-Rafidayn” (daha çox “İraq Əl-Qaidəsi” adı ilə tanınır) adını götürən radikal terrorçular 2006-cı ilin yanvar ayında “Ceyş ət-Taifa Əl-Mənsur”, “Ceyş Əhli-Sünnə vəl-Camaa”, “Ceyş əl-fatihin”, “Cund əs-Səhabə” kimi kiçik qruplarla birləşib “Mücahidun Şura Konseyi” adını aldı. İraq müharibəsinin qızğın dövründə Anbar, Ninəvə, Diyalə, Babil, Kərkük və Səlahəddin bölgələrində aktivlik göstərən qruplaşma üzvləri 2006-cı ilin 15 oktyabr tarixində paytaxtı Baquba şəhəri olan “İraq İslam





Dövləti” adlı dövlət elan etdi. Bu tarixdən etibarən “Mücahidun Şura Konseyi” adı altında toplaşan qruplaşmaların keçirdiyi əməliyyatlar “İraq İslam Dövləti” adıyla keçirilməyə başladı.

Suriya vətəndaş müharibəsinin başlamasından bir müddət sonra həmin radikal terrorçular Suriyada Əl-Nusra Cəbhəsi (“Əl-Qaidə”nin Suriya qanadı) adı altında “peyda oldular”. 2013-cü ilin aprel ayında İŞİD əmiri Əbu Bəkr əl-Bağdadi yayımladığı səs yazısında Əl-Nusra Cəbhəsinin İŞİD tərəfindən yaradıldığı, maliyyələşdirildiyi və dəstəkləndiyi açıqlamasını verdi. Və bu tarixdən etibarən hər iki qruplaşmanın “İraq və Şam İslam Dövləti” adı altında fəaliyyət göstərəcəyini bildirdi. İŞİD-in törətdiyi qətliamlar, terror aktları haqda geniş məlumat verməyə ehtiyac yoxdur. Bütün dünya tərəifindən terror qruplaşması kimi tanınan bu qruplaşma ayrı-ayrı vaxtlarda Türkiyə, Fransa, Liviya və başqa ölkələrdə yüzlərlə dinc insanın həyatına qəsd edərək terror aktları həyata keçiriblər.

**Yeni coğrafiya, yeni məqsədlər...**

İŞİD-in son altı aydakı fəallaşma fazasına qədəm qoyması isə bəzi siyasi ekspertlər tərəfindən yeni siyasi düzənlə əlaqələndirilir. Belə ki, qlobal qarşıdurma coğrafiyasının mühüm hissəsi kimi qeyd edilən Yaxın Orta Şərq və xüsusilə Afrikanın şimal ərazisində sabitliyin pozulmasına, eyni zamanda, Mərkəzi və Cənub - şərqi Asiya regionunda hazırki yeni iqtisadi - siyasi komplektləşməyə müdaxilə imkanlarının formalaşdırılmasına cəhd kimi xarakterizə olunan fəallaşmanın daha çox siyasi mahiyyət daşıdığı ortaya çıxır. Siyasi analitiklərə görə, Ukrayna üzərindən “Avroasiyaya giriş” planının paralel inkişaf xətti sayılan Suriyadan Şimali Afrikaya köçmüş və ya köçürülmüş terror qruplarını, onların Yaxın Şərqdəki qollarını Orta Asiyaya “yönləndirilməsi” burada əsas şərtlərdən biri kimi yer tutur. Təsadüfi deyil ki, bəzi aparıcı araşdırma institutları son alarda İŞİD mövzusuna yenidən müraciətlər edir, Mərkəzi Asiyada terror təhlükəsi ilə bağlı “geniş araşdırmalar” aparır, qənaətlər fofrmalaşdırır, ehtimallar irəli sürür. Mütəxəssislərin iddialarına görə, ABŞ-ın Əfqanıstanda 16 il davam etmiş “antiterror mübarizəsi”nin ardından regionu Talibana təslim etməsi qruplaşmanın yeni inkişaf mərhələsini yaradıb. Bu ilin martında Rusiyanın Moskva vilayətinin Krasnoqorsk şəhərində yerləşən “Crocus City Hall”da baş verən terror hadisəsindən sonra bir sıra məsələlərin üzərinə daha aydın şəkildə işıq salındı: İŞİD bəlasının bu dəfə Asiya regionunda “trayektoriya xətti” cızacağı düşünülür. Yeni qiyafədə - “İŞİD-in fərqli adlar altında yaranan yeni qolları bu terror qrupunun coğrafi yerləşimi kimi də müəyyənləşəcək. İŞİD-in yeni “qərargahı” kimi təbliğatı aparılan ərazinin isə Avrasiyanın mərkəzində yerləşməsi təsadüfi deyil. Bir neçə ildir Əfqanıstanda legitim hakimiyyətə yiyələndiyini isbat etməyə çalışan “Taliban”a qarşı diş qıcamayan, hətta buna dəstək verirmiş kimi görünən güclər Mərkəzi Asiyanı İŞİD-in yeni “qurbanına” çevirməyin “dividendini” belə hesablayıb. Bunun arxasında böyük iqtisadi, hərbi, siyasi məqsədlər dayanır.

Görünən budur ki, İŞİD-i yenidən gündəmə gətirməyə çalışan qüvvələr bunun üçün əlindən gələni edir - perspektivdə Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya ticari xəttinə təsir göstərmək, TDT-nin timsalında yeni siyasi mərkəzin güclənməsini önləmək üçün ən yolverilməz və təhlükəli addımları belə hesablanır. Yeni gündəmdə İŞİD-dən əlverişli “oyuncaq” tapıla bilməzdi. Regionun əhalisi müsəlmandır və bunu qərbli ideoloqlar İŞİD-in təməl “ideologiyaya” çevirdiyi cihadı daha tez qəbul etmək potensialı ilə dəyərləndirirlər. Başqa sözlə, onlar İŞİD-in əli ilə bölgədə daha rahat hərəkət etmək imkanı qazanma ehtimalını yüksək sayırlar.

Vurğulandığı kimi, yeni iqtisadi münasibətlərə zərbə vurmaq, regional inkişaf xəttindəki mühüm logistik dayanacaqları tam nəzarət altına almaq üçün hərəkətə keçən güclər Mərkəzi Asiyada idarəolunan xaos yaratmaq istəyindədir - onlar bu yolla iqtisadi kommunikasiyalara nəzarət imkanı yaratmaq niyyətindədirər.

*S.İSMAYILZADƏ*

# İctimai nəqliyyatda səhhəti pisləşənlər...

## Metroda niyə tibb məntəqəsi yoxdur?

İsti havalarda ictimai nəqliyyatda, xüsusilə metrolarda sıxlığın yaşanması bir sıra neqativ hallara yol açır ki, onlardan biri də sərnişinlərin səhhətinin pisləşməsi hallarıdır. Nəzərə alsaq ki, insanın orqanizmi üçün ən komfortlu temperatur 20-24 C sayılır, yayda bu göstəricinin artması, xüsusilə də yüksək rəqəmlərə çatması sağlamlıq üçün ciddi risk faktoru yaradır. Məlumdur ki, isti havalarda insan orqanizmi tərləmə ilə əlaqədar çox miqdarda su, duz və minerallar itirir. Bunun isə ürək-damar sisteminə mənfi təsirləri yaranır.

İstidə damarlar genişlənir, ürək döyüntüsü artır, qan qatılaşır, damarlarda tromblar əmələ gələ bilər - bütün bunlar da ürək tutması, insult və infarktın riskini xeyli artırır. Bu mənada, kəskin istilər zamanı metro və avtobuslarda, insanların sıxlıq təşkil etdiyi ictimai nəqliyyatlarda ürəkgetmə, səhhətin pisləşməsi, hətta infarkt halları ilə tez-tez qarşılaşırıq.

Nəzərə alsaq ki, paytaxt Bakının sakinlərinin böyük əksəriyyəti Bakı Metropoliteninin xidmətindən istifadə edir, məsələ bu ququm üçün də aktuallıq daşıyır. Metrolarda təcili tibbi yardım göstərilməsi üçün mövcud şəraitin olmaması isə belə hallarda çətinliklər yaradır. Vətəndaşlar halı pisləşən şəxslərin həyatını xilas etmək üçün ilk müdaxilənin vacib olduğunu, bunun üçün metrolarda tibb məntəqlərinin mövcudluğunu zəruri hesab edirlər. Bəs bununla bağlı aidiyyatı qurumlar nə düşünür?





### Metropolitenin fəaliyyəti sərnişindaşımadır...

Sualımızı cavablandıran “Bakı Metropoliteni” QSC-nin Mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Bəxtiyar Məmmədov bildirib ki, ilkin tibbi yardımla bağlı metropoliten işçiləri məlumatlandırılır, bu cür məsələlər müzakirə edilir. Lakin “Bakı Metropoliteni” sərnişindaşıma fəaliyyəti ilə məşğuldur: “Metronun tibblə bağlı hər-hansı bir səlahiyyəti yoxdur. Tibb məntəqələri, tibb işçiləri isə səhiyyə sahəsinə aiddir. “Bakı Metropoliteni” QSC bu gün səhiyyə qurumları, xüsusilə də Təcili və Təxirəsalınmaz Tibbi Yardım şöbəsi ilə birgə operativ, sürətli iş qurub deyə, buna həm zərurət yoxdur, həm də bu məsələ dövrü olaraq iki qurum arasında müzakirə olunur. Stansiyaların birində hadisə baş verdikdə operativ şəkildə təcili tibbi yardım xidmətinə müraciət edilir, operativ əlaqələrin optimal şəkildə qurulması nəticəsində stansiyaların birindən müraciət daxil olubsa təcili yardım göndərilir”.

Qurum rəsmisi qeyd edib ki, indiyə kimi bu məsələ ilə bağlı heç bir problem yaşanmayıb: “Əgər ehtiyac yaranarsa, metropoliten lazım olan bütün şəraiti yaradacaq”.

### Sıxlığı nəzarət altında saxlamağa çalışırıq...

B.Məmmədov qatarlar arasında dəqiqə intervalı ilə bağlı məsələyə də toxunub. Onun sözlərinə görə, tədris mövsümünə görə metroda 2 dəqiqəlik interval tətbiq olunurdu: “Tədris mövsümünün bitməsi ilə əlaqədar interval artırılıb. Bu sərnişin axınını tənzimləmək məqsədilə atılan addımdır. İntervalın əvvəlki qaydada saxlanılması sərnişin axınının tənzimlənməsində bir sıra problemlər yaradardı. Səhər saatlarında 08:20 və 08:25 arasında xüsusi sıxlıq yaşanırdı. Həmin müddətdə xətdə olan qatarların manevrindən istifadə etməklə sıxlıq aradan qaldırılmağa çalışılırdı. Bu qrafik isə bizə ehtiyat qatarları lazım vaxtda xəttə buraxmağa imkan yaradır. Çünki 2 dəqiqəlik interval tətbiq olunduqda ehtiyat qatarlardan istifadə edilmir. Bu zaman digər tənzimləmə mexanizmlərinə müraciət etmək olmur. Səhər və axşam saatlarında intervalın artırılması istənilən vaxt ehtiyat qatardan istifadə etməyə şərait yaradır. Metroda insanların sıx olma vaxtları dəyişdiyinə görə ehtiyat qatarlara ehtiyac duyulur. Tənzimləmənin daha çevik mexanizmlərindən istifadə etməklə sıxlığı nəzarət altında saxlamağa çalışırıq.

Payız və qış mövsümündə bu mexanizmdən istifadə etməməyin əsas səbəbi tədris mövsümü və insanların işə getməsi ilə əlaqədardır. Həmin dövrdə saat 10-a qədər olan vaxt ən sıx vaxtdır. Həmin vaxtda maksimal sıxlıq vaxtı təyin olunur və yanlız xətdə olan qatarların manevrindən istifadə etmək olur. Hər hansısa bir ehtiyat qatar xəttə buraxılmır”.

*Yeganə BAYRAMOVA*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Dəniz səhvləri bağışlamır...

## Kiçik məsuliyyətsizliklər böyük faciələrə yol açır

Artıq bir aydan çoxdur ki, çimərlik mövsümü başlayıb. Ötən bu zaman kəsəyində dənizdə boğulma halları ilə bağlı çoxsaylı faktlar qeydə alınıb. Baş verən hadisələri bir çoxusu isə qadağan edilmiş çimərliklərdə baş verir. Əhalinin istifadəsinə icazə verilən ərazilərdə də bu hallara rast gəlinir - demək olar ki, hər gün boğulma xəbərlərini eşidirik.

Təəssüf ki, dənizdə, çaylarda boğulanlar arasında xüsusilə yeniyetmələr, gənclər üstünlük təşkil edir. Onların böyük əksəriyyəti həmyaşıdları ilə iddialara girib həyatlarını təhlükəyə atırlar. Bu cür hallar əsasən çaylarda, yaxud qadağan olunmuş çimərliklərdə yaşanır.

Məsələ ilə bağlı “Yeni Azərbaycan”a danışan təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev dənizdə boğulmaların sayının artmasını daha çox insanların məsuliyyətsizliyi ilə əlaqələndirir. Ekspert qeyd edib ki, insanların böyük əksəriyyəti dənizin çimərlik üçün nəzərdə tutulmayan hissələrində suya girməklə həyatlarını riskə atır: “Bəzi çimərliklərə giriş pullu olduğundan insanlar həyatlarını riskə atmaq bahasına belə olsa, çimərlik üçün nəzərdə tutulmayan ərazilərə üz tutur. Amma birmənalı şəkildə başa düşmək lazımdır ki, qadağan olunmuş çimərliyə getmək olmaz. Bu, həm səhhətimiz üçün, həm də həyatımız üçün təhlükəlidir.

Yaxşı olardı ki, insanlar gedəcəyi çimərliyi düzgün seçsinlər. Çünki qanunla təhlükəli hesab edilən və qadağan edilən ərazilərdə suya girəcəklərsə, bu zaman yaşana biləcək təhlükənin 50 faizini öz üzərilərinə götürürlər. Belə ki, təhlükəli hadisə baş verərsə, həmin ərazidə onlara kömək edə biləcək xilasedicilər yoxdur”.

### Bu saatlarda suya girməyin...

Ekspert bildirib ki, FHN-nin xilasediciləri yalnız çimərlik kimi istifadəyə icazə verilən hissələrdə var: “İnsanlar bilməlidir ki, küləkli, dumanlı, yaxud günün qaranlıq saatlarında, günün 12:00-16:00 radələrində suya girmək məsləhət deyil. Ümumiyyətlə, dənizdə saatlarla qalmaq riskdir. Xüsusilə, günün birinci yarısında Günəş şüalarının təsiri güclü olduğundan, günvurmaya yol aça bilir. Bunu hiss etmədən suya girən adamlarda huşunu itirmə, müvazinətini itirmə halları yaşanır. Belə olan halda isə boğulma qaçılmaz olur. Düşünürəm ki, ən münasib vaxt 16:00-dan sonradır. Mümkün qədər kölgədə qalmaq məsləhətdir”.

### Dəniz səhvləri bağışlamır...

E.Nurəliyevin sözlərinə görə, boğulmaların sayının artmasına səbəb insanların dənizə mərclə girməsidir: “Gənclər dənizə istirahət məqsədilə yox, özünü ətrafdakılara göstərmək, kiməsə nəsə sübut etmək üçün gedir. Bu, düzgün deyil. Dəfələrlə rastlaşdığım məqamlardır. Bir neçə gənc mərc edir ki, kim daha çox dərində üzə bilər. Bütün bunlar insanın bilə-bilə öz həyatını riskə atmasıdır. Dəniz səhvləri bağışlamır.

Suda kəskin hərəkətlər zamanı əzələ dartıla bilər. Bu hal isti-isti hiss edilməsə də, suya girəndə suyun ağırlığı bədənin müvazinətinə mane olur və boğulma baş verir. Fikir versəniz görərsiniz ki, boğulmalar daha çox gənc nəsil arasındadır. 13-35 yaş arası insanlar daha çox dənizin qurbanı olur. Dəfələrlə xəbərdarlıq edilsə də, insanlar qaydalara əməl etmir. Məsələnin ən dəhşətli tərəfi isə insanların öyrənmək istəməməsidir”.

### İnsanları məlumatlandırmaq istəyəndə gülürlər...

Oxşar hadisələrin çaylarda, göllərdə və təhlükəli hesab edilən müxtəlif su hövzələrində də baş verdiyini deyən ekspert bu sahədə maariflənməyə ehtiyac olduğunu bildirib. E.Nurəliyev qeyd edib ki, dənizdən fərqli olaraq, çaylarda, göllərdə suyun altındakı axının sürəti fərqli, lili isə normadan artıqdır.

Onun sözlərinə görə, insanlar dənizdə normal istirahət qaydalarını bilmirlər. Dənizdə ağır, yağlı yeməklər yeyib, spirtli içki qəbul edib suya girənlərin ilbəil artdığını deyən ekspert aidiyyəti orqanların buna cərimələr tətbiq etməsinin zəruri olduğunu diqqətə çatdırıb: “Bəzən ağır yeməklər yeyib, spirtli içki qəbul edib, dənizə girirlər. Bu, çox risklidir. Biz bu barədə insanlara məlumat verəndə gülürlər. İşin əsas mahiyyətinin fərqinə varmırlar. Çox istərdim ki, aidiyyəti orqanlar tərəfindən hər gün çimərlik ərazilərinə baxış keçirilsin. Bənzər vəziyyətlə qarşılaşdıqda həmin şəxs və ya şəxslər cərimələnsin”.



### Daha çox sosial çarxlar hazırlanmalıdır...

Ekspert bildirib ki, dənizdən düzgün istifadə, boğulma hallarının qarşısını almaq üçün sosial çarxların daha çox hazırlanması vacibdir: “Lakin insanlar məsuliyyətsiz olduqdan sona həmin maarifləndirici videolara da əhəmiyyət vermirlər. Düzdür müəyyən sosial çarxlar hazırlanıb, ancaq bu sahədə maarifləndirici videoların sayı çoxluq təşkil etməlidir. Bəlkə, ondan sonra dənizdə boğulmaların, bədbəxt hadisələrin sayı azalar”.

E.Nurəliyevin fikrincə, problem bununla da bitmir. Bilmək lazımdır ki, dənizdə sahilə paralel üzmək lazımdır: “Sahilə perpendikulyar üzmək olmaz. Dənizin hər istiqamətində dərinlik eyni deyil. Bu dərinliklər dəyişir. Anidən çökək yerə düşdükdə dalğanı tənzimləmək olmur və boğulma baş verir.

Valideynlər azyaşlı uşaqlarını da özləri ilə dərinliyə aparır. Düşünmürlər ki, hadisə zamanı özlərini xilas etsələr, uşaqlarının həyatını riskə atmış olacaqlar. Dənizdə boğaza qədər olan hissədə üzmək lazımdır. Daha dərinə getmək olmaz.

Bundan başqa, boğulmalar bəzən qıcolmalardan da baş verə bilir. Bu zaman təlaşlanıb əl-

### Boğularkən bunları etməyin...

ləri suyun üzünə çıxarmaq doğru deyil. Əksinə, əllərini suyun üzünə çıxarmadan, başı dik tutub kömək istəmək lazımdır. O zaman suyun üzərində qalmaq olur. İnsanlar təlaşla qollarını suyun üzərinə çıxarıb çapalayırlar. Yaxşı olardı ki, insanlar dənizdə təhlükəsizlik və davranış qaydalarını öyrənsinlər”.

***Yeganə BAYRAMOVA***

### İtmişdir

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən Müasir Müsavat Partiyasına 17 iyun 2002-ci il tarixində verilmiş Dövlət Qeydiyyatı haqqında Şəhadətnamə itdiyi üçün etibarsız sayılır

## *İdman*

### Luka Modriçlə müqavilənin müddəti uzadıldı

İspaniyanın “Real Madrid” komandası Xorvatiya millisinin futbolçusu Luka Modriçlə yeni müqavilə imzalayıb. AZƏRTAC klubun rəsmi saytına istinadən xəbər verir ki, 39 yaşlı yarımmüdafiəçi ilə sözləşmənin müddəti 2025-ci ilin yayınadək uzadılıb. Qeyd edək ki, 2012-ci ildən La Liqa təmsilçisinin formasını geyinən təcrübəli oyunçu bu komanda ilə ümumilikdə, 26 titul qazanıb. O, 6 dəfə Çempionlar Liqasının, 5 dəfə klublararası dünya çempionatının, 4 dəfə UEFA Superkubokunun, 4 dəfə La Liqanın, 2 dəfə İspaniya Kubokunun və 5 dəfə ölkə Superkubokunun qalibi olub.




### İlk turun proqramı açıqlanıb

Futbol üzrə Azərbaycan Premyer Liqasında 2024/2025-ci illər mövsümünün ilk turunun oyun cədvəli açıqlanıb.

AZƏRTAC Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, yeni mövsüm son çempion “Qarabağ”ın oyunu ilə start götürəcək. Ağdam təmsilçisi “Araz-Naxçıvan”ın qonağı olacaq.

### “Bakıdakı matçda daha aqressiv olmalıyıq”

“Şerif”in “Zirə” ilə ilk oyununu izləmişəm. Məğlub olmağımız bizi məyus etdi”.

AZƏRTAC xəbər verir ki, bu sözləri Moldovanın “Şerif” komandasının yeni transferi Qideon Uçe Qudlad Avropa Liqasının I təsnifat mərhələsində evdə “Zirə”yə qarşı keçirdikləri ilk oyun barədə klubun rəsmi saytına açıqlamasında deyib. 29 yaşlı hücumameyilli yarımmüdafiəçi cavab görüşünə daha yaxşı hazırlaşdıqlarını bildirib: “Səhvlərimizi birlikdə müzakirə etdik. Komandada yeni transferlər var. Hazırda bəzi futbolçular bir-biri ilə anlaşma cəhətdən problem yaşayırlar. Düzdür, vaxtımız yoxdur. Çalışırıq ki, uğurlu nəticə əldə edək. Bakıda keçiriləcək matçda daha aqressiv olmalıyıq. Cavab oyunu ilə bağlı müsbət düşünürük. “Zirə”yə qalib gələcəyimizə inanıram”.

Qeyd edək ki, bu gün “Dalğa Arena”da keçiriləcək “Zirə”-”Şerif” matçı saat 20:00-da başlayacaq. İlk oyunda Bakı klubu 1:0 hesablı qələbə qazanıb.




### Bellinqem üç ay oynamaya bilər

İspaniyanın “Real Madrid” komandasının və İngiltərə millisinin yarımmüdafiəçisi Cud Bellinqemin üç ay yaşıl meydanlardan uzaq qalma ehtimalı var. AZƏRTAC xarici mətbuata istinadən xəbər verir ki, buna futbolçunun çiynindəki zədəyə görə əməliyyat keçirəcəyi səbəb ola bilər.

Tibbi müdaxilədən sonra 22 yaşlı oyunçunun sağalma prosesinin 3 ay davam edəcəyi bildirilib. Qeyd edək ki, Cud Bellinqem ötən mövsüm “Real Madrid”in heyətində 42 oyunda 23 qol və 13 məhsuldar ötürmə ilə yadda qalıb.




### Beynəlxalq basketbol turnirinin təqvimi...

Qadınlar arasında keçirilən 3x3 basketbol üzrə Qadın Seriyasının Quba mərhələsində iştirak edəcək komandaların qrupları və oyun təqvimləri müəyyənləşib.

Azərbaycan Basketbol Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, yarışda 8 komanda 2 qrupda mübarizə aparacaq.

A qrupunda “Baku Fleyms”, Avstraliya, Niderland, Çin U-24, B qrupunda isə Çexiya Filippin, İran və “Düsseldorf Zoos” (Almaniya) komandaları yer alacaqlar.

Quba mərhələsinin açılış oyunu iyulun 20-də “Baku Fleyms” və Niderland yığması arasında baş tutacaq. Qarşılaşma saat 16:30-da start götürəcək. Dünya Seriyasının “Quba” mərhələsinə iyulun 21-də yekun vurulacaq.





Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4339**
**Sifariş: 1596**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova